

## "ABŞ və Rusiyanın Qafqazda fərqli maraqları var"

6

## Fransa portalı Azərbaycandakı Alban dini abidələrindən yazır

MUSULMANS en FRANCE
Le journal des musulmanes et musulmans en France




5

Səs
№ 028 (6469) 15 fevral 2022-ci il. Qiymәti 60 qәpik

# Prezidentin Qarabağa hər səfəri Böyük Qayıdışı sürətləndirən addımlarla yadda qalır



2

## İLHAM ƏLİYEV:

"Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq və burada əbədi yaşayacağıq"

## YAP Mərkəzi Aparatında görüş keçirilib



5

Fevralın 14-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvü Tahir Məmmədovun 70 illik yubileyi münasibətilə görüş...

## "Mançester Yunayted" bu futbolçusunu "Flamenqo"ya satıb



16

## Batka düz deyir: axı Ermənistan kimin nəyinə lazımdır



7



### Qərblə Rusiya arasında qalan Ermənistan

14

Qərbin, xüsusən də Avropa İttifaqının Ermənistana azca nəzər salması fonunda bu işğalçı ölkədə əks qütb...



### Azərbaycanda Sevgililər Günü nə vaxt qeyd olunmalıdır?

13

Azərbaycan tarixində baş verən əlamətdar hadisələr onun milli dəyərlərini, milli qürurunu yaşadan bir gün olaraq...

# Prezidentin Qarabağa hər səfəri Böyük Qayıdışı! sürətləndirən addımlarla yadda qalır

Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdam və Ağcabədi rayonuna etdiyi səfərləri və bu səfərlər çərçivəsində rayon ictimaiyyəti ilə keçirdiyi görüşlər, təməlqoyma mərasimlərində iştirak etdiyi layihələr dağıdılmış şəhərlərimizin, kəndlərimizin qısa müddət ərzində yenidən qurulacağına, insanların öz doğma el-obasına qayıdacağına, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanacağına olan inamı daha da möhkəmləndirib. Bütün bunlara görədir ki, müharibənin bitməsindən çox az vaxtın - cəmi bir ilin keçməsinə baxmayaraq, Böyük qayıdış proqramının ilk mərhələsi artıq reallaşdırılmaq üzrədir.

### “MƏN MÜHARİBƏDƏN SONRA AĞDAMA ÜÇÜNCÜ DƏFƏDİR SƏFƏR EDİRƏM, HƏR DƏFƏ BURAYA GƏLƏNDƏ ÜRƏYİM AĞRIYIR”

Prezident İlham Əliyev Ağdam rayonuna səfəri zamanı Cümə məscidinin qarşısındakı çıxışında bildirib ki, hər dəfə Ağdama gələndə və bu dağıdılmış yerləri, məscidləri görəndə ürəyim ağrıyır: ”Mən müharibədən sonra Ağdama 3-cü dəfədir ki, səfər edirəm. Hər dəfə buraya gələndə ürəyim ağrıyır. Çünki Ağdamda bir dənə də olsun salamat bina yoxdur”. ”Təkcə bu yarıdağılmış məsciddir ki, onun da dam örtüyü zədələnmişdir. Bu məscid ermənilər tərəfindən təhqir edilib, burada inəklər, donuzlar saxlanılıb. Ermənilər nəinki Azərbaycan xalqını, bütün müsəlman aləmini təhqir ediblər. Ağdam şəhərində, Ağdam rayonunda bu yarıdağılmış məsciddən başqa bir dənə də bina ayaq üstə deyil”, - deyə dövlətimizin başçısı vurğulayıb. Rayondakı bütün binaların, evlərin ermənilər tərəfindən dağıdıldığını qeyd edən Prezident İlham Əliyev deyib: ”Bu, misli görünməmiş barbarlıqdır, vandallıqdır, vəhşilikdir. Bu, erməni faşizminin eybəcər sifətinin göstəricisidir. Bütün dünya bunu görməlidir və görür. Biz bundan sonra da xarici vətəndaşları buraya dəvət edəcəyik. Onlar gələcəklər və erməni vəhşiliyi nədir onu görəcəklər”.



### “BİZ ÖZ TORPAĞIMIZDAYIQ. BİZ BU TORPAĞA QAN TÖKƏRƏK, ŞƏHİDLƏR VERƏRƏK QAYITMIŞIQ”

Prezident İlham Əliyev Ağdam rayonuna səfəri zamanı çıxışında bildirib ki, artıq Ağdama və Şuşaya avtobus marşrutları təşkil edilib: ”Ağdamlılar, şuşalılar və digər bölgələrdən olan vətəndaşlar gəlirlər, tanış olurlar və öz gözləri ilə görürlər ki, bizim xalqımız hansı bəla ilə üz-üzə idi. Otuz il ərzində məqsədyönlü şəkildə bütün şəhərlərimiz, kəndlərimiz, məscidlərimiz, qəbiristanlıqlarımız ermənilər tərəfindən dağıdılıb”.

İndi bəzilərinin gələcək barışıq haqqında danışdıqlarına diqqət çəkən dövlətimizin başçısı deyib: ”Əlbəttə ki, Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Beynəlxalq hüququn norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə bu sülh müqaviləsi imzalanmalıdır. Mən də onu demişəm. Ancaq heç vaxt Azərbaycan xalqı bu vəhşiliyi unutmamalıdır. Heç kim bu vəhşiliyi unutmamalıdır. Əminəm ki, bizim bu gün gördüyümüz işlər, o cümlədən ordu quruculuğu sahəsində gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq. Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!”.

Ardı Səh. 3

## İLHAM ƏLİYEV:

*"Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq və burada əbədi yaşayacağıq"*





# Prezidentin Qarabağa hər səfəri Böyük Qayıdışı sürətləndirən addımlarla yadda qalır!

Əvvəli Səh. 2

## VANDALİZMƏ MƏRUZ QALAN QARABAĞ XANLARININ TÜRBƏLƏRİ VƏ YAŞAYIŞ EVİ - İMARƏT KOMPLEKSİ

Səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamda Qarabağ





xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində olublar. Bildirilib ki, XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindən olmaqla, iki binadan ibarətdir. Saray Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. Buna görə də, Pənahəli xanın imarəti də adlandırılıb. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Buradan tövlə kimi istifadə olunub.

Qarabağ xanları Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xan Cavanşirin, eləcə də onların ailə üzvlərinin - Xan qızı, şairə və xeyriyyəçi Xurşidbanu Natəvanın, şair və ictimai xadim Cəfərqulu xan Cavanşirin, xeyriyyəçi, Şuşada Aşağı və Yuxarı Gövhərağa məscidlərini tikdirmiş Gövhərnisə bəyimin, şairə, "Məclisi-üns"ün iştirakçılarından olmuş Xanbikə xanımın qəbirləri burada yerləşir. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinə məruz qalıb.

## *İLHAM ƏLİYEV:*

*"Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq və burada əbədi yaşayacağıq"*



## "BU, HEYDƏR ƏLİYEV FONDUNUN AZƏRBAYCANIN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİN QORUNMASINA NÖVBƏTİ TÖHFƏSİDİR"

Həmçinin səfər çərçivəsində Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış olublar.

Prezident qeyd edib ki, görülmüş bütün bu işlərlə yanaşı, tarixi və dini abidələrimiz də bərpa edilir: "Mənə bu gün verilən məlumata görə, Ağdam Cümə məscidinin bərpa işlərinə başlanılır. Artıq bütün tədqiqatlar aparılıb və mart ayından başlayaraq məscidin həm daxilində, həm çöl hissəsində təmir-bərpa işlərinə start veriləcək. Azad edilmiş torpaqlarda hazırda 8 məscidin əsaslı təmiri, bərpası və tikintisi nəzərdə tutulub. Bütün bu istiqamətlər üzrə işlər gedir", - deyə Prezident İlham Əliyev diqqətə çatdırıb. Dövlətimizin başçısı deyib ki, bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür: "Bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir. Bu, bizim borcumuzdur. Bunu biz edirik. Vətən qarşısında bu borcu şərəflə yerinə yetiririk".

## "AĞDAM RAYONUNUN BƏRPASI İLƏ BAĞLI KOMPLEKS TƏDBİRLƏRİN GÖRÜLMƏSİ BİZƏ İMKAN VERƏCƏK Kİ, QISA MÜDDƏT ƏRZİNDƏ AĞDAMI YENİDƏN QURAQ, YARADAQ"

Görülən işlərlə tanışlıqdan sonra Prezident İlham Əliyev çıxış edərək bildirib ki, Ağdam rayonunun bərpası ilə bağlı kompleks tədbirlərin görülməsi bizə imkan verəcək ki, qısa müddət ərzində Ağdamı yenidən quraq, yaradaq: "Bu gün Ağdamın gələcək inkişafı ilə bağlı çox önəmli addımlar atılmışdır, bir neçə təməlqoyma mərasimi keçirilmişdir. Hesab edirəm ki, qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə konkret nəticələrə gətirib çıxaracaq".

"Bu gün Ağdam şəhərində sənaye parkının ilk rezidentləri tərəfindən yaxın gələcəkdə istifadəyə veriləcək yeni müəssisələrin təməl daşı qoyuldu",- deyən dövlət başçısı bildirib: "Sənaye parkının təməl daşını mən keçən dəfə Ağdamda qoymuşdum, Müstəqillik Günündə qoymuşdum. Bu gün isə artıq ilk müəssisələrin təməli qoyuldu. Artıq 5 rezident vardır və onlar işə başlayırlar. Beləliklə, 190 hektar ərazidə qurulacaq Ağdam Sənaye Parkının ilk müəssisələri artıq bu sahədə ilk addımlarını atır. Bu, çox önəmli hadisədir. Ona görə ki, Ağdam şəhərinin gələcək inkişafı ilə bağlı planlarımızda, ilk növbədə, yaşayış binalarının inşası və iş yerlərinin açılması var. Çünki burada yaşayacaq ağdamlılar işlə təmin olunmalıdırlar. İş yerlərinin yaradılması ilə bağlı əlavə addımlar da atılacaq. Əminəm ki, yaxın gələcəkdə Ağdam Sənaye Parkında onlarla müəssisə işə başlayacaqdır".

## PREZİDENT İLHAM ƏLİYEVDƏN İŞ ADAMLARINA ÇAĞIRIŞ

"Azərbaycan iş adamlarına da mən bu gün burada - Ağdam Cümə məscidinin önündə çağırış edirəm ki, gəlsinlər həm Ağdama, həm də azad edilmiş bütün digər ərazilərə sərmayə qoysunlar, vəsait qoysunlar. Çünki bu gün Azərbaycanda biznes üçün, sahibkarlar üçün çox gözəl şərait yaradılıb",-deyən dövlət başçısı bildirib ki, dövlət sahibkarları dəstəkləyir və həm mənəvi-siyasi dəstək verilir, eyni zamanda, güzəştli kreditlər verilir: "Əlbəttə ki, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır.

Ardı Səh. 4

# Prezidentin Qarabağa hər səfəri Böyük Qayıdışı sürətləndirən addımlarla yadda qalır!

Əvvəli Səh. 3

Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar. Biz azad edilmiş torpaqları ancaq bu yolla tezliklə canlandıra bilərik. Əlbəttə, dövlət öz tərəfindən lazımi addımları atır və atacaq. Ağdam şəhərinin Baş planı hazırlanıb, Baş plan əsasında işlər görülür. Əlbəttə ki, özəl sektorun nümayəndələri bu işlərdə fəal olmalıdırlar".

### "İŞĞALDAN AZAD EDİLMİŞ BÜTÜN ŞƏHƏRLƏR BAŞ PLAN ƏSASINDA YENİDƏN QURULACAQ"

"Qarşımızda böyük işlər var. Bu işləri maksimum səmərə ilə və keyfiyyətlə aparmaq üçün düşünülmüş addımlar planı olmalıdır. Bütün şəhərlər Baş plan əsasında yenidən qurulacaq",-deyən dövlət başçısı bildirib ki, Ağdamın, Füzulinin Baş planları təsdiq edilib: "Ağdam və Füzuli rayonlarının ictimaiyyəti bu Baş planlarla tanış olub və öz müsbət rəyini verib. Hazırda yerli və xarici şirkətlər tərəfindən digər şəhərlərin

## İLHAM ƏLİYEV:

## "Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq və burada əbədi yaşayacağıq"

Baş planları işlənilir. Onlar hazır olan kimi biz artıq praktiki işlərə başlayacağıq". "Bu gün Ağdamda iki yarımstansiyanın açılışı ilə azad edilmiş torpaqlarda yarımstansiyaların sayı 9-a çatıb. "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının fəaliyyəti nəticəsində bütün rayon elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin ediləcək".

Bildirildi ki, işğaldan azad edilən Ağdam rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərenerji" ASC tərəfindən "Xındırıstan" yarımstansiyasından 35 kilometr məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətti çəkilib. Demək olar ki, xətt tam minalanmış ərazidən keçib. Bəzi yerlərdə minalar arasından bir neçə metr enində cığır açılaraq bu çətin vəzifə icra edilib. Ən əsası isə Ağcabədidən Xındırıstana, oradan da "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarına qədər ümumilikdə 63 kilometr məsafədə 110 kilovoltluq xəttin üzərində ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi üçün 24 damarlı fiberoptik kabel çəkilib. Bununla da Ağdama təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürmə qabiliyyətli sürətli internet xətti gətirilib. Azərbaycanın elektroenergetika tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzurun elektrik şəbəkəsinin Regional Rəqəmsal İdarəetmə Mərkəzi məhz Ağdamda yaradılıb. Rəqəmsal İdarəetmə Mərkəzinin binası Operativ Qərargahın şəhərsalma işçi qrupu tərəfindən təsdiq edilmiş müasir üslubda hazırlanmış memarlıq layihəsi əsasında inşa olunub.





### "AĞDAMDA YENİ YAŞAYIŞ KOMPLEKSİ TƏQRİBƏN İL YARIMA - İKİ İLƏ İNŞA EDİLƏCƏK"

Prezident İlham Əliyev çıxışı zamanı bildirib ki, bu gün qeyd etdiyimiz hadisələrdən biri də yaşayış kompleksinin təməl daşının qoyulmasıdır: "Altı evdən ibarət yaşayış kompleksi təqribən il yarıma - iki ilə inşa ediləcək, bəlkə də ondan da tez və beləliklə, Ağdamın hərtərəfli inkişafı təmin olunacaq". Dövlət başçısı bütün bu işlərlə yanaşı, Ağdamın yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulduğunu deyib: "Bərdə-Ağdam avtomobil yolu, dəmir yolu inşa edilir. Hesab edirəm ki, avtomobil yolu təqribən bir ilə hazır olacaq. Mənim göstərişimlə Füzuli-Ağdam avtomobil yolunun çəkilişi layihəsi artıq icra olunmağa başlamışdır. Bu yol həm Füzuli və Ağdam şəhərlərini birləşdirəcək, eyni zamanda, Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək və Ağdama başqa ölkələrdən gəlmək daha asan olacaq".

"Bu işlər bir daha onu göstərir ki, biz vaxt itirmədən, tarixi Zəfərdən sonra vaxt itirmədən bu işlərə start vermişik, siyasi iradə ortaya qoymuşuq, bütün maliyyə və texniki imkanlarımızı, kadr potensialımızı səfərbər etmişik",-deyən Prezident vurğulayıb ki, bütün bu işləri biz özümüz görürük, öz vəsaitimiz hesabına, büdcəmiz hesabına, heç kimdən yardım istəmədən, heç bir kredit almadan: "Bunu Azərbaycan vətəndaşları edir. Əlbəttə ki, müxtəlif xarici şirkətlər artıq bu işlərdə fəal iştirak edirlər. Bu şirkətlərin sayı artmaqdadır. Mən çox şadam ki, həm yerli şirkətlər, həm xarici şirkətlər azad edilmiş torpaqlarda işləməyə can atırlar, maraq göstərirlər və biz bunu alqışlayırıq".

Qarşıda böyük işlərin olduğunu söyləyən dövlət başçısı qeyd edib ki, bu işləri maksimum səmərə ilə və keyfiyyətlə aparmaq üçün əlbəttə ki, düşünülmüş addımlar planı olmalıdır: "Bütün şəhərlər Baş plan əsasında yenidən qurulacaq. Ağdamın, Füzulinin Baş planları təsdiq edilib. Ağdam və Füzuli rayonlarının ictimaiyyəti bu Baş planlarla tanış olub və öz müsbət rəyini verib. Hazırda yerli və xarici şirkətlər tərəfindən digər şəhərlərin Baş planları işlənilir. Onlar hazır olan kimi biz artıq praktiki işlərə başlayacağıq. Əminəm ki, bizim bu gün gördüyümüz işlər, o cümlədən ordu quruculuğu sahəsində gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq. Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!



### AĞCABƏDİ RAYONUNDA DA GÖRÜLƏN İŞLƏR VƏ HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏR BİR DAHA AZƏRBAYCANIN GÜCÜNÜ VƏ QÜDRƏTİNİ NÜMAYİŞ ETDİRİR

Azərbaycan Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva elə həmin gün, yəni fevralın 13-də Ağcabədi rayonuna səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım xalqımızın ümummilli lideri Heydər Əliyevin rayon mərkəzindəki abidəsini ziyarət edib, "Ağcabədi taxıl Aqropark"da yaradılan şəraitlə tanış olublar.

Prezident İlham Əliyev yenidən qurulan 110/35/10 kilovoltluq "Ağcabədi" yarımstansiyasının açılışını edib. Həmçinin, dövlətimizin başçısı və birinci xanım Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yeni inşa olunan hərbi şəhərciyinin, Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun açılışlarında iştirak ediblər.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya respublika əhəmiyyətli Ucar-Zərdab-Ağcabədi avtomobil yolunda həyata keçirilmiş işlər barədə də məlumat verilib. Həmçinin, "Ağcabədi taxıl Aqropark"da yaradılan şəraitlə tanış olublar.

Bir sözlə, dövlət başçımızın işğaldan azad edilmiş ərazilərə səfərləri və səfərlər zamanı ən qısa zamanda görülən işlər və bu istiqamətdə gedən bütün işlərə birbaşa Azərbaycan Prezidenti tərəfindən ciddi şəkildə nəzarət olunması, Azərbaycan rəhbərinin siyasi iradəsi, verdiyi vədlərlə əməllərinin vəhdəti belə deməyə əsas verir ki, çox keçməyəcək, işğaldan azad edilmiş torpaqlara həyat qayıdacaq, bu ərazilər yenidən çiçəklənəcək, bura təkcə ölkənin deyil, regionun ən inkişaf etmiş məskənlərindən birinə çevriləcək.

Dövlət başçımızın dediyi kimi: "Əminəm ki, bizim bu gün gördüyümüz işlər, o cümlədən ordu quruculuğu sahəsində gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq. Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!".

**RƏFİQƏ KAMALQIZI**




# Əlcəzair portalı:
# Azərbaycan və Türkiyə prezidentləri Şuşa Bəyannaməsini təsdiq ediblər

**Əlcəzairin "Əl Hərir" portalında "Azərbaycan və Türkiyə prezidentləri Şuşa Bəyannaməsini təsdiq ediblər" sərlövhəli material yerləşdirilib.**

AZƏRTAC-a istinadla yayımlanan xəbərdə ərəbdilli oxucuların diqqətinə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" 2021-ci il iyunun 15-də Şuşa şəhərində imzalanmış Şuşa Bəyannaməsinin təsdiqləndiyi çatdırılıb. Qeyd olunub ki, fevralın 12-də Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı Qanunu imzalayıb.

"Əl Hərir" portalının xəbərində vurğulanıb ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Şuşa Bəyannaməsi haqqında qanun layihəsini ratifikasiya edib və tarixi əhəmiyyətə malik sənədin imzalanması ilə iki qardaş ölkənin münasibətləri müttəfiqlik səviyyəsinə yüksəlib, hərtərəfli əməkdaşlıq istiqamətində yeni üfüqlər açılıb.

# YAP Mərkəzi Aparatında görüş keçirilib





**Fevralın 14-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvü Tahir Məmmədovun 70 illik yubileyi münasibətilə görüş keçirilib.**

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edərək ona möhkəm cansağlığı və ictimai-siyasi fəaliyyətində yeni-yeni uğurlar arzulayıb. Bildirilib ki, Tahir Məmmədov müxtəlif sahələrdə səmərəli və məqsədyönlü fəaliyyət göstərməklə Azərbaycanın ictimai-siyasi həyatında həmişə fəal mövqe tutur. O, əsl ziyalı, vətəndaş və qələm sahibi kimi ulu öndər Heydər Əliyev ideyalarına sədaqət nümayiş etdirib.

"Siz məşhur "91-lər"dən biri kimi Yeni Azərbaycan Partiyasının yaradılmasında yaxından iştirak etmisiniz. Hazırda isə YAP Veteranlar Şurasının üzvü olaraq üzərinizə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səy və bacarığınızı əsirgəmirsiniz. Sizin əməyiniz və xidmətləriniz hər zaman yüksək qiymətləndirilib. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əməkdar Jurnalist" fəxri adı ilə təltif olunmusunuz",-deyə Tahir Budaqov qeyd edib.

Yubilyarı doğum günü münasibəti ilə təbrik edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə Tahir Məmmədovu hər zaman prinsipial, möhkəm əqidəli və dəyişməz mövqeyi olan vətəndaş kimi xarakterizə edib.

Göstərilən diqqətə və ünvanına deyilən xoş sözlərə görə təşəkkürünü bildirən Tahir Məmmədov ulu öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının üzvü olmaqdan qürur duyduğunu bildirib. O, hazırda Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə partiyamızın inkişafında yeni mərhələnin başlandığını və atılan addımların YAP-ın cəmiyyətdəki mövqeyini daha da gücləndirdiyini söyləyib. T.Məmmədov YAP Veteranlar Şurasının üzvü kimi bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səy və bacarığını əsirgəməyəcəyini bildirib.

# Fransa portalı Azərbaycandakı Alban dini abidələrindən yazır




Azərbaycan qədim zamanlardan Şimal və Cənubdan gələn çoxsaylı mədəniyyət, din və dil təsirləri ilə zənginləşib və bu təsirlər onun çoxminillik tarixini, milli kimliyini formalaşdırıb. Qədim İpək Yolu üzərində yerləşən köhnə sikkə yataqları Qafqazın antik dövrdən mühüm ticarət mərkəzi olduğunu təsdiqləyir. Etnik qruplara məxsus dağlarda mövcud olan 60 dil füsunkar dil muzeyi haqqında təsəvvür yaratmağa imkan verir. Lakin bu gün Azərbaycanın müxtəlif mədəniyyətlərə və inanclara malik icmaların yaşadığı etiraf edilsə də, onun Qafqaz Alban Kilsəsinin tarixi beşiyi olmasından az danışılır. Müəllif bildirir ki, Qafqaz Albaniyası kimi tanınan, indi mövcud olmayan böyük bir krallığın mərkəzində pravoslav, apostol və avtokefal kilsələr fəaliyyət göstərib. Yazılı mənbələr və maddi mədəniyyət nümunələri I əsrdən etibarən 26 tayfadan ibarət albanların bu ərazilərdə dominant olduqlarını təsdiqləyir.




AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransa Milli Elmi Tədqiqatlar Mərkəzinin (CNRS) islamşünas alimi, Paris Tədqiqatlar Ali Məktəbinin doktoru, bir çox beynəlxalq tədqiqat qruplarının üzvü Karim İfrakın "Musulmansenfrance" portalında dərc edilmiş "Azərbaycanda mövcud olmuş Qafqaz Alban kilsəsinin izi ilə" sərlövhəli məqaləsində yer alıb.

Məqalədə Alban avtokefal kilsəsinə məxsus əlyazmalardan da bəhs olunub. Bu məbədin XIX əsrdə çar Rusiyasının ruslaşdırma siyasətinin qurbanı olduğu qeyd edilib. Bildirilib ki, erməni Qriqoryan kilsəsi Qafqaz Alban kilsəsinin arxivlərini məhv edib. Çar Rusiyası tərəfindən osmanlı və fars imperiyalarından qovulan ermənilərin Naxçıvan və Qarabağ xanlıqları ərazilərində məskunlaşdırılması ilə Alban kilsəsinin izlərinin silinməsi daha da sürətlənib.

Yazıda, eyni zamanda, vurğulanıb ki, bir erməni arxeoloq Qarabağda yerləşən kilsə və monastırlarda tapılmış əlyazmalarla bağlı apardığı tədqiqatlar nəticəsində orada aşkarlanan irsin Alban kilsəsinə məxsus olması qənaətinə gəlib.

Qeyd edilib ki, Qafqaz Albaniyasının ilk kilsələrinin eramızdan əvvəl I əsrə aid olduğu göstərilib. Həmçinin Qafqaz Albaniyasının ilk paytaxtı olan Qəbələdən söz açılıb. Eyni zamanda, Qafqaz Alban kilsəsinin dünya irsinin, xüsusilə də xristianlığın ayrılmaz tərkib hissəsi olduğu vurğulanıb.



# YAP nümayəndəsi İCAPP-ın Büro iclasında iştirak edib

**Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) onlayn formatda Büro iclası keçirilib.**

İCAPP-ın təsisçisi, İCAPP Daimi Komitəsinin həmsədri Xose de Venesia, İCAPP-ın Büro üzvləri və İCAPP-ın Qadınlar Qolunun həmsədrlərinin iştirak etdiyi iclasda təşkilatın 2022-ci il üçün iş planı müzakirə edilib, İCAPP-ın Gənclər Qolunun 6-cı, Qadınlar Qolunun 7-ci iclaslarının 2022-ci il 25-27 mart tarixlərində Monqolustanın paytaxtı Ulan-Batorda keçirilməsi qərar alınıb. İclasda İCAPP-ın Gənclər Qolunun həmsədri, Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Ramin Məmmədov da iştirak edib.

# "ABŞ və Rusiyanın Qafqazda fərqli maraqları var"

## Rus ekspertlər sülh prosesini şərh etdi

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Stanislav Zas "Valday" Beynəlxalq Diskussiya Klubu çərçivəsində "Yeni dövrdə kollektiv təhlükəsizlik: KTMT-nin təcrübəsi və perspektivləri" adlı konfransda çıxış edərkən vurğulayıb ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı vəziyyəti ehtiyatlı nikbinlik adlandırmaq olar. O qeyd edib ki, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı imzalandıqdan və Rusiya sülhməramlılarının Qarabağa daxil olmasından sonra vəziyyət sabitləşib, qan tökülməsi dayanıb.**






MDBMİ-nin Beynəlxalq Araşdırmalar İnstitutunun aparıcı elmi işçisi Nikolay Silayev KTMT baş katibinin fikri ilə razıdır. SİA xəbər verir ki, o, Caliber.az-ın əməkdaşı ilə söhbətində qeyd edib ki, Stanislav Zasın danışdığı ehtiyatlı nikbinlik üçün həqiqətən də əsaslar var: "Qarabağda irimiqyaslı hərbi əməliyyatlar bərpa olunmur, tərəflər danışıqlar aparır. Təbii ki, hamı daha sürətli nəticə əldə etmək istərdi, amma 30 illik qarşıdurmadan sonra bunu gözləmək qəribədir.

Belarus prezidentinin Ermənistanın İttifaq dövlətinə daxil olmasının qaçılmaz olması ilə bağlı bəyanatına gəlincə, ekspert qeyd edib ki, Aleksandr Lukaşenko İttifaq dövləti haqqında deyil, keçmiş SSRİ-yə inteqrasiya perspektivlərindən danışıb: "Lukaşenko optimist olaraq bu perspektivləri görür. Ermənistan artıq Avrasiya İqtisadi İttifaqında iştirak edir və bu assosiasiyanın üzvü kimi gələcək inteqrasiyanın istiqamətini və miqyasını müəyyən edir".

Daha sonra Silayev Qarabağ məsələsində beynəlxalq güclərin və regional oyunçuların vasitəçilik xidmətləri ilə bağlı fikirlərini bölüşüb. Politoloq hesab edir ki, vasitəçi kimi çıxış edən böyük dövlətlərin əksəriyyəti yaxın mövqelərdən çıxış edir və bu məsələdə əməkdaşlıq etmək iqtidarındadır.

Öz növbəsində politoloq, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin filialının direktoru, fəlsəfə elmləri namizədi Pavel Klaçkov xatırladıb ki, Stanislav Zasın bəyanatı ehtiyatlı nikbinlikdən xəbər verir.

"Mən Zasın sözlərini dəstəkləyərdim, çünki məncə də Qarabağ məsələsində son dərəcə ehtiyatlı nikbinlik, kifayət qədər kövrək tarazlıq var. İndi istənilən qığılcım idarəolunmaz yanğına çevrilə bilər. Bundan əlavə, qlobal kontekstdə bu balansı qorumaq lazımdır. Bu gün Avrasiya qitəsində bir neçə gərginlik nöqtəsi var. Bunlar Tayvan, Ukrayna, Hindistan və Pakistan münasibətləri, Əfqanıstan və s. dir. Və bəzən hətta regionlararası münaqişələrə çevrilən bu regional münaqişələr silsiləsində Ermənistan-Azərbaycan sərhəd zonasında vəziyyət xüsusi diqqətli münasibət və sərhədlərin demarkasiyası və delimitasiyası ilə bağlı gələcək sistemli işlərin aparılmasını tələb edir. Başqa sözlə, bu optimizmi və tarazlığı gücləndirmək üçün hər şey ardıcıl və sistemli şəkildə edilməlidir",- Klaçkov hesab edir.

Həmçinin rusiyalı politoloq vurğulayıb ki, özünün arzusu olmadan heç kim Ermənistanı İttifaq dövlətinə birləşdirməyə hazırlaşmır.



"Bəli, Belarus prezidenti Aleksandr Lukaşenko həqiqətən də bu məsələ ilə bağlı danışıb, amma baxın, bu Ermənistan rəsmilərinin hansı reaksiyasına səbəb olub. Hətta bunun ehtimalı da şübhə altına aldılar. Lukaşenkonun sözləri daha çox ölkənin daxili siyasi gündəminə fokuslandığı kontekstində şərh edilib. Yəni Ermənistanın İttifaq dövlətinə qoşulma mövqeyi hətta neytral da deyil, əksinə mənfidir. Bununla belə, belə bir ehtimalı da istisna etmirəm. Sadəcə olaraq, Ermənistan, görünür, uzun bir transformasiya, bəlkə də anlaşma yolu keçməli, müəyyən çətinliklərdən keçməli və təkbaşına bu qənaətə gəlməli olacaq. Ola bilsin, Lukaşenko bunu deməkdə bir az tələsib",- həmsöhbətimiz təklif edib.

Sonra o qeyd edib ki, Ermənistan-Azərbaycan dialoqunda vasitəçi rolunda çıxış edən ölkələr arasında vahid komanda yoxdur, onların hamısı sırf özlərinin, əsasən milli maraqlarını müdafiə edir.

"Və burada biz baxmaq lazımdır ki, hansı milli maraqlar həqiqətən regiona sülh və rifah gətirir, hansı isə əksinə, sabitliyin pozulmasına gətirib çıxara bilər. ABŞ və Rusiyanın bu məsələdə fərqli maraqları var. Avropa və Türkiyədə də tez-tez fikir ayrılıqları olur. Burada kifayət qədər mürəkkəb münasibətlər var və hər şeyin Cənubi Qafqazla məhdudlaşdığını düşünmək olmaz. Hesab edirəm ki, güclü qlobal güclər öz aralarında dialoq aparanda bir neçə regionda öz resursları, öz fəaliyyətləri ilə fəaliyyət göstərirlər. Bütün bunlar böyük siyasətin elementidir. Onların hansısa ümumi vəzifəsi olduğuna inanmaq sadəlövhlükdür",- ekspert bildirib.

Klaçkov əmindir ki, Moskva Qarabağ probleminin həlli üçün daha effektiv və ənənəvi platformadır: "Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Moskvada keçiriləcək görüşlər məhz Cənubi Qafqazda vəziyyətin sabitləşməsinə gətirib çıxaracaq formatdır. Moskva həqiqətən sabitləşmədə maraqlıdır. Mənə elə gəlir ki, Rusiyaya etibar etməmək üçün heç bir səbəb yoxdur, halbuki bütün digər alternativlər hardasa kömək edə bilər, ancaq dolayı yolla. Və çox vaxt belə səhifələr sadəcə Moskvanı bezdirmək üçün yaradılır. Rusiya ilə Azərbaycanı qonşuluq birləşdirir, bu uzun bir tarixdir, biz çox yaxında vahid dövlətdən- SSRİ-dən ayrılmışıq. İstər xalqlarımız səviyyəsində, istər dövlətlər səviyyəsində, istərsə də dövlət başçıları səviyyəsində çoxlu ümumi cəhətlərimiz var. Düşünürəm ki, danışıqlar prosesində yalnız Moskva inamlı və sakit atmosferi təmin edə bilər".

*Tərcümə - Elçin Bayramlı*

# Ermənilərin tarixi yaddaşımızı silmək mərəzi




Məlum olduğu kimi, fevralın 4-də Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Prezident İlham Əliyevin, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda görüş baş tutdu. Görüşdə UNESCO-nun Azərbaycana və Ermənistana missiya göndərməsi ilə bağlı razılıq əldə olundu. Xatırladaq ki, Vətən müharibəsindən sonrakı müddət ərzində Azərbaycan UNESCO-nun missiyasının göndərilməsi ilə bağlı razılığını bildirmişdi. İlk əvvəl təşkilat bunda maraqlı olsa da, sonradan erməni lobbisinin təsiri ilə bu proses suni şəkildə uzadılırdı. Artıq razılıq əldə olunub. İşğaldan azad olunmuş ərazilərdə ermənilərin törətdikləri vandalizmi, dağıntıları UNESCO nümayəndələri gəlib öz gözləri ilə görə bilər. Başqa bir məsələ isə UNESCO-nun Ermənistana göndərəcəyi missiyadır.

Məlumdur ki, ötən əsrin 20-ci illərində ermənilər Azərbaycana məxsus 15 qədim mahalın hesabına özlərinə qurama dövlət düzəldə bilmişlər. Ermənilərin Cənubi Qafqazda, o cümlədən qədim Oğuz yurdunda - indiki Ermənistan ərazisindəki tarixi türk-xristian abidələrinə sahib çıxması da məhz XIX əsrdə geniş vüsət almışdı. Müasir Ermənistan Respublikası adlanan tarixi Azərbaycan ərazisində çoxsaylı qalalar, qala-şəhərlər, hərbi istehkam obyektləri mövcud olmuşdur. Orta əsrlər dövrünə və Rusiya işğalı dövrünə aid ədəbiyyatlarda indiki Ermənistan ərazisində mövcud olmuş və hərbi istehkam xarakteri daşıyan İrəvan qalası, Keçi qalası, Sərdarabad qalası, Talın qalası, Gümrü qalası, Şörəyel qalası haqqında məlumatlar verilir. Adları sadalanan bütün bu qalaları İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra ermənilər tədricən dağıdaraq yer üzündən silmişlər.

Ermənistanda abidələrə qarşı səlib yürüşü elə sovet hakimiyyəti illərində də həyata keçirildi. Sürətlə addəyişmə başladı. Hələ sovet dövründə Ermənistan adlanan qədim Oğuz yurdunda azəri türklərinə məxsus toponimlər dəyişdirildi. Yüzlərlə şəhər, kənd, qəsəbə, dağ, çay, dərə, bulaq və tarixi abidələrin adları erməniləşdirildi. Vaxtilə müsəlman Şərqində "məscid və minarələr" şəhəri kimi məşhurlaşan İrəvanda bu gün yalnız bir məscid qalmaqdadır ki, onu da ermənilər dünya ictimaiyyətinə fars məbədi kimi təqdim edirlər. Uzun illər fasiləsiz olaraq hücumlara mətanətlə sinə gərən məşhur İrəvan qalasının da bu gün izi-tozu yoxdur. Bütün Avropa səyyahlarını heyrət içində qoyan möhtəşəm Sərdar Sarayı, onun şəkillərdə gördüyümüz Güzgülü salonu artıq bir nağıldır.

Vaxtilə bu yerlərdə olan tarixçilər - Ə.Ələkbərov, Z.Bünyadov, M.Nemətova abidələr haqqında geniş araşdırma apararaq onları dünya epiqrafiya elminin dəyərli nümunələri kimi səciyyələndirmişlər. Xüsusilə də qəbir daşlarının üzərindəki yazıları oxuyaraq qədim insanın, ulu babalarımızın həyat tərzi, məişəti haqqında dəyərli məlumatlar vermişlər. Məhz onların axtarışları nəticəsində qədim türklərə məxsus elə qayaüstü təsvirlər üzə çıxarılmışdır ki, bunların Qobustan və Gəmiqaya təsvirləri ilə əlaqəsi şərh edilmişdir. Xüsusilə də Zəngəzur bölgəsi abidələrlə zəngin bir ərazi hesab edilib. Mahalın Qarakilsə rayonu ərazisində eramızdan əvvəl ikinci minilliyə aid bir tikilinin qalıqları son illərə qədər qalırdı. Şaquli vəziyyətdə cərgə ilə düzülmüş bu daşlar Neolit dövrünün yadigarı idi. Ədəbiyyata Qoşundaş adı ilə düşən bu qədim abidəni sonralar ermənilər sətri tərcümə edərək öz kitablarında Zorakarer kimi siyahıya alıblar.

Zəngəzurun məşhur yaşayış məskəni olan Urud kəndi (sonradan Voratan) abidələrlə çox zəngin idi. Burada Babək qalası, kurqanlar, qədim körpü, eləcə də müxtəlif qəbirüstü abidələr, məbədlərin xarabalıqları vardı. Hündür, sıldırımlı qayanın zirvəsində yerləşən qala üç tərəfdən divarla əhatələnmişdi. Qalanın zirvəsindən çaya gizli yol vardı. Qalanın aşağı hissəsində təxminən iki kilometrə yaxın bir ərazidə dağılmış evlərin xarabalıqları görünürdü. Bu qala tarixi mənbələrdə müxtəlif adlarla qeyd edilib. Sonuncu dəfə Babəkin ordusu burada döyüşdüyündən yerli əhali onu elə Babək qalası adlandırmışdılar.

Qarakilsənin (Sisian) Ağdü kəndindəki qəbirüstü abidə öz nəhəngliyi və milli ornamentləri ilə diqqət çəkirdi. Sonralar ermənilər VII yüzillikdə tikilmiş 9 metr hündürlüyündə olan bu abidənin sütunlarına xaç şəkilləri oydular. Halbuki Ağdü kəndi qədimdən türk-oğuz boylarının beşiyi idi. Ermənilər bu kəndə ancaq 1988-ci ilin soyqırımından sonra köçdülər.

Zəngəzur mahalının Gorus rayonunun Tatev kəndində böyük bir ərazini əhatə edən məbəd vardı. El arasında bu məbədə "Tat ev" və ya "Böyük ev" deyirdilər. "Tat" sözünü el arasında bu ərazidə oturaq həyat keçirən türklərə aid edərdilər. IX-X əsrdə yaşamış memar babalarımızın daş yaddaşı olan bu abidə də əslində alban-türk xristian məbədi idi.

Zəngi çayının sahilində İrəvan şəhərinin yaxınlığındakı Qırmızıtəpədə böyük bir türk qalasının xarabalıqları da son illərə kimi qalırdı. Narınqala adlanan bu qala 150 otaqdan ibarət saray kompleksi olub. Müxtəlif olaylar və çəkişmələr zamanı dağıdılıb. Hətta tarixçilər yazırlar ki, İrəvan şəhəri Rusiya tərəfindən işğal edilənə kimi bura İrəvan xanlığının mərkəzi imiş.

Üçkilsə rayonu (Eçmiədzin) ərazisində möhtəşəm bir alban abidəsi vardı. Hətta bu yerlərdən keçmiş səyyahlar da öz yazılarında bu məbədin adını çəkiblər. Maraqlıdır ki, abidə bütün yazılarda Üçkilsə adlanırdı. Yalnız 1945-ci ildə ermənilər həriki Üçkilsəni Eçmiədzin etdilər. Bu gün də fəaliyyət göstərən və ermənilərin dini mərkəzi adlanan, əslində terror yuvasına çevrilən bu tarixi məkan arman-türk hökmdarı Tiridat tərəfindən IV yüzillikdə tikilmişdi. Xeyirxah bir niyyətlə inşa edilən bu məbəd yüzillər boyu xristian arman-türk xalqına xidmət etmişdir.

Ümumiyyətlə, indiki Ermənistan ərazisində bədnam qonşularımız tərəfindən erməniləşdirilmiş abidələr və məbədlər saysız-hesabsızdır. Ömrü boyu saxtakarla, oğurluqla, əyriliklə məşğul olan quldur ermənilər o müqəddəs ünvanların təkcə adlarını özlərinə bağlamayıblar. Havasını, ətrini, rəngini dəyişiblər, gözəlliyini pozublar. 1988-ci ildə həyata keçirilən deportasiya zamanı qədim yurd yerlərimiz olan indiki Ermənistanda 120 tarixi abidə dağıdıldı, 230 məscid, pir, ocaq və məbədlər yox edildi, 670 qəbiristanlıq (bu qədim axirət dünyası da abidələrlə zəngin idi) şumlanaraq düzləndi.

*Sevinc Azadi*

SİYASİ RAKURS

# Batka düz deyir: axı Ermənistan kimin nəyinə lazımdır?

Bu yaxınlarda Belarusun prezidenti Aleksandr Lukaşenkonun Rossiya telekanalına verdiyi müsahibəsi zamanı Ermənistanla Azərbaycanı müqayisə etməsi, daha dəqiq desək, İrəvanı Bakının qarşısında heçə sayması erməni ictimai-siyasi rəyini sözün əsl mənasında yerdən-yerə vurdu. İsterikaya düşən erməni siyasiləri, hakimiyyət nümayəndələri Lukaşenkonun əslində reallığı əks etdirən fikirlərinə qarşı özlərinə məxsus şəkildə donlar geyindirməyə başladılar. Ancaq fakt hər zaman öz faktlığında qalmaqdadır və həqiqətən gerçəklikdən əsla yaxa qurtarmaq mümkün deyil. Batkanın (Belarus xalqının Lukaşenkoya verdiyi psevdonim) həmin fikirlərini isə elə-belə xatırlatmadıq. Yəni bunun da bir əsası, səbəbi vardır...

**Əvvəllər prosesi ləngidən, məğlubiyyətini unudaraq "şərtlərlə" çıxış edən Nikol Paşinyan indi niyə bu qədər tələsir və mümkünsüz "şərtlərini" yöndəmsiz təklifləri ilə əvəzləyir?**

**Azərbaycan tərəfi 44 günlük müharibədəki kimi sərt şəkildə sözügedən "təklifləri" qatlayaraq erməni başbilənlərinin ən yaxşı halda ciblərinə dürtmüşdü!**



**Nəticə olaraq Ermənistan Azərbaycanın beynəlxalq hüquqlar çərçivəsində qəbul olunmuş sərhədlərini tanımalıdır!**

## Və ya İrəvan ətrafında süni səs-küylər yaradıb təlaşlar keçirərkən, Bakının sakit tərzdə davranmasının sirri

Son vaxtlar, xüsusilə Brüssel görüşündən sonra Ermənistanın baş naziri Nikol Paşinyanın öz fikrini Zəngəzur dəmir yolu üzərində cəmləşdirməsi, hətta bunun üçün sürətli templərlə hökumətdaxili komissiya yaratması, üstəlik fantastik smeta - 200 milyon ABŞ dolları həcmini müəyyən etməsi həm də təəccüb yaratdı. Yəni bir müddət bundan əvvələ qədər erməni baş nazirinin ümumiyyətlə, mövzudan qaçması, sonradan isə ondan ikiəlli yapışması həmin təəccübün yaranmasına səbəb oldu. Artıq Paşinyan Rusiya üzərindən və s. beynəlxalq vasitəçilərin yardımları ilə müxtəlif təkliflərlə çıxışlar edir. Misal üçün, dəmir yolu ilə yanaşı, həm də yolların istifadəyə verilməsi, ardınca isə digər infrastruktur layihələri...





Bu zaman sual yaranır: əvvəllər prosesi ləngidən, məğlubiyyətini unudaraq "şərtlərlə" çıxış edən Nikol Paşinyan indi niyə bur qədər tələsir və mümkünsüz "şərtlərini" yöndəmsiz təklifləri ilə əvəzləyir? Görünür, bunun da səbəbləri var və onları araşdırdıqca maraqlı nüasnları üzə çıxarmaq mümkündür.

Məlumdur ki, dəmir yolu sərhədlərin blokadadan çıxarılması prosesində əsas amillərdəndir və onu da xatırlada bilərik ki, Ermənistan 2021-ci ildə daha əvvəlki inadkarlıqlarının nəticəsiz qalacağını anladıqdan sonra bütün kommunikasiyaların açılmasını təklif edirdi. Lakin indi fərqli fikir nümayiş etdirir - Nikol Paşinyan yalnız dəmir yolu üzərində konsentrə olub, əlavə olaraq isə komissiya yaradıb. Amma unudub ki, əslində sözügedən məsələ ilə üçtərəfli beynəlxalq hüquqi komissiya məşğuldur. Söz yox ki, onun bu addımı da növbəti siyasi boşluğunun isbatı kimi qiymətləndirilə bilər.

Artıq indidən belə bir nəticə çıxarmaq olar ki, Paşinyanın tələskənliyi aşağıdakı məsələlərlə bağlıdır:

- O, razılaşmalar vasitəsi ilə dəmir yolunun gələcək istifadəsində erməni sərhədçilərinin və gömrük işçilərinin dayanmaları formasını əldə etmək, hətta möhkəmləndirmək iddiasındadır.

- Bu məsələdə onun Avropa İttifaqı tərəfindən elə də ciddi hesab edilməyən dəstəyi var.





Ancaq Nikol Paşinyan daha bir həqiqəti unudub ki, onun təkliflərinin keçərsizliyini isbat edən beton kimi faktor mövcuddur - İlham Əliyev qətiyyəti və siyasəti!

Paşinyanın iddialarına cavab gecikmədi və Azərbaycan Prezidenti dərhal bəyan etdi ki, əgər belədirsə, bu zaman Azərbaycanın sərhəd-buraxılış məntəqələri, polisləri və hərbçiləri Laçın dəhlizinə çıxaraq öz postlarını quracaqlar və buna kimsə mane ola bilməyəcək. Üstəlik, indi olmasa belə, qısa zamandan sonra onsuz da Azərbaycan hərbçiləri, polisləri, sərhədçiləri, gömrükçüləri Laçın dəhlizində dayanacaqlar, çünki bu ərazi Azərbaycanın suveren əraziləridir!

Beləliklə, Paşinyan burada siyasi biclik işlətməyə çalışıb. Yəni dəmir yolu planını üçtərəfli komissiyanın gündəmindən çıxarmağa səy göstərib. Belə bir bəyanat səslənmişdi ki, dəmir yolu hissəsi Cənubi Qafqaz Dəmir Yolları tərəfindən işlədiləcək, lakin ermənilərin bu sahədə mütəxəssisləri sadəcə yox səviyyəsindədir.

Ermənistan bu vasitə ilə Azərbaycanla Rusiyanın arasında narazılıqlar yaratmağa da çalışıb. Məsələn, Ukrayna məsələsində Rusiya-Qərb qarşıdurmasının bir qığılcımını da Cənubi Qafqaza salmağa, Bakı-Moskva müasibətlərini soyutmağa cəhd edib. Fəqət, bu plan da baş tutmayıb və Ermənistanın təklifləri elə boş təkliflər olaraq da öz səmərəsizliyini nümayiş etdirir.

Sərhədlərin delimitasiyası və demarkasiyası məsələsində isə Ermənistanın təhlükəsizlik şurası "güzgüvari geriçəkilmə prinsipini", yaxud Alma-Ata Bəyannaməsini ortaya atdı. Həmin Bəyannaməyə görə isə sərhədlərin tanınması Qarabağsız baş verməli idi...

Bugünə qədər bir neçə dəfə həmin "təkliflər" səsləndirilmişdi və Azərbaycan tərəfi 44 günlük müharibədəki kimi sərt şəkildə sözügedən "təklifləri" qatlayaraq erməni başbilənlərinin ən yaxşı halda ciblərinə dürtmüşdü!

Daha bir fakt budur ki, ermənilərin mövqeləri boş olması ilə yanaşı, həm də rezlisə üçün münbit deyil, daha dəqiq desək, resurssuzdur. Dalana dirənmiş Ermənistan real, tələb edilən proseslərdən nə qədər yaxa qaçırmağa çalışacaqsa bir o qədər ağır vəziyyətdə düşməli olacaq. Bu gün İrəvan anlamalıdır ki, kommunikkasiya xətlərinin açılması üçün sərhədlər delimitasiya və demarkasiya olunmalıdır, qarşılıqlı qaydada ərazilər tanınmalıdır, sülh müqaviləsi imzalanmalıdır. Nəticə olaraq Ermənistan Azərbaycanın beynəlxalq hüquqlar çərçivəsində qəbul olunmuş sərhədlərini tanımalıdır!

Bu gün Ermənistanın qarşısında yenilməz, güclü və qlobal dünya siasətində ayrıca mövqeyi olan Azərbaycan dövləti dayanıb və son bir ay yarımlıq zaman kəsimində rəsmi Bakı geosiyasi və iqtisadi mənada növbəti iri addımını atması ilə bu reallığı sübuta yetirdi. Nə baş verdi qısa müddətdə?

-Azərbaycan Cənubi Qafqaz regionunun Qərb üçün geosiyasi məkan əhəmiyyətini və vacibliyini əsaslandırdı.

- Bakı Tehran və Aşqabadla strateji xarakterli qaz razılaşmasını əldə etdi.

- Türkiyənin Dövlət başçısı Rəcəb Tayyib Ərdoğandan sonra Azərbaycan Prezidenti İlham Əliyev Şuşa Bəyannaməsini rəsmən qüvvəyə mindirən tarixi sənədə imzalarını atdılar.

Bütün bu kimi proseslər fonunda Ermənistan lazımsız "şərtlər", yaxud "təkliflər" sırımağa çalışmaqla, ətrafında süni səs-küylər yaratmaqla məşğul olarkən, Azərbaycan özünü təmkinlə, sakit tərzdə apardı və təkcə ay yarımlıq müddətdə yuxarıda qeyd edilən uğurlara imza atdı.

Beləliklə, Bakı uzağı bir neçə dəfə "xəbərdarlıq atəşi" açır, növbəti qərarında isə sadəcə hərəkətə keçir və onun qarşısını heç bir qüvvə ala bilməz.

Hələ də beynəlxalq aləmə ümid göstərən Ermənisyan bunu əvvəl-axır anlamağa məhkumdur. Batka Lukaşenko demişkən, axı Ermənistanın kimin nəyinə lazımdır..?

***Rövşən RƏSULOV***

# Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır

## YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ülviyyə Həmzəyevanın yap.org.az-a müsahibəsi



*- Ülviyyə xanım, bir ildən artıqdır ki, ölkəmizin həyatında tamamilə fərqli bir mərhələ yaşanır. Torpaqlarımızın işğaldan azad edilməsi, Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycanın cənnət məkana çevrilməsi və soydaşlarımızın Böyük Qayıdışının təmin edilməsi istiqamətində atılan addımlar hər birimizi qürurlandırır. Vətəndaşlarımıza Ağdamı və Qarabağın tacını görmək imkanları yaradılıb. 30 illik torpaq həsrətinə son qoyularaq Füzuli Beynəlxalq Hava Limanının qonaqları qarşılaması, Şuşaya və Ağdama avtobus reyslərinin açılması sizdə hansı hissləri yaradır?*

- Azərbaycan 30 ilə yaxın Dağlıq Qarabağ münaqişəsini beynəlxalq birlik tərəfindən tanınan sərhədlərimiz çərçivəsində suverenliyimizə və ərazi bütövlüyümüzə hörmət əsasında dinc yolla nizamlamağa çalışdı. Dövlətimiz tərəfindən bu müddət ərzində BMT, ATƏT və onun Minsk Qrupuna, Avropa ictimaiyyətinə, həmçinin bir sıra sülhməramlı təşkilatlara Ermənistan rəhbərliyini bütün danışıqlar prosesini pozmaq cəhdlərinə görə məsuliyyətə çağırmaq barədə müraciətlər edildi. Ancaq işğalçı ölkəyə təzyiq göstərilmədi, düşmən tərəfinin danışıqlar prosesinə qayıtması üçün heç bir addım atılmadı. Nəticədə ermənilər daha da azğınlaşdı və ümumiyyətlə danışıqlardan imtina etmək kimi mənfur niyyətlərini ortaya qoydular.

30 il ümidsiz idik, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik və gücləndik. Bir il əvvəl dövlətlə xalqımızın birliyini bütün dünya gördü. Ölkə Prezidentinin apardığı siyasət "dəmir yumruq" kimi düşmənlərimizi əzdi və düşməni torpaqlarımızdan qovdu. 10 noyabr 2020-ci il tariximizə qələbə günü kimi yazıldı və Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu.

Prezident İlham Əliyev qətiyyəti və yenilməz sərkərdə əzmi ilə müzəffər ordumuzun gücünə və xalq-iqtidar birliyinə söykənərək düşməni ildırım sürətilə necə məğlub etdisə, o cür yenilməz ruhla da işğaldan azad edilmiş ərazilərdə sistemli quruculuq işlərinin və yüksək texnologiyaların tətbiqinə başlayıb. İndi az qala bütün dünya həmin ərazilərdə bərpa-quruculuq işlərinin birinci mərhələsinin necə geniş və əhatəli şəkildə vüsət almasına şahidlik edir.

Hər birimiz müharibədən sonra Qarabağda və Şərqi Zəngəzurda başlayan quruculuq işlərini böyük ruh yüksəkliyi, gözəl əhval-ruhiyyə ilə izləyirik. Dövlətimiz bütün imkanlarını işğaldan azad olunmuş torpaqlarımızda həyatın canlanmasına, qaçqınların tezliklə öz el-obalarına qayıtmasına səfərbər edib. Qısa zaman içərisində inanılmaz işlər görülüb. Yollar, elektrik xətləri, su xətləri, dəmir yolları çəkilir, hava limanları tikilir.

Artıq Qarabağda birinci pilot layihə gerçəkləşir. Zəngilan rayonunda 3 kəndi birləşdirən layihənin başa çatması gözlənilir. Bundan başqa, bir neçə kəndin planı da təsdiqlənib. Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında da pilot kəndlər seçilib. Yaxın gələcəkdə o kəndlərin də layihələri icra ediləcək. Ağdam şəhərinin baş planı təsdiqlənib, digər şəhərlərin baş planının təsdiqlənməsi üzərində iş gedir.

Prezident İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına yeni obyektlərin açılış və təməlqoyma tədbirlərini əhatə edən səfəri çərçivəsində yeni yarımstansiyanın fəaliyyətə başlaması, su elektrik stansiyasının tikintisi, Laçın rayonunda beynəlxalq hava limanının, iki tunelin təməlinin qoyulması, Kəlbəcər və Laçın rayonlarında arıçılıq və heyvandarlıq təsərrüfatlarının artıq fəaliyyət göstərməsi böyük qayıdışın çox yaxında şahidi olacağımıza zəmanət verir.

İşlər o qədər sürətlə və geniş miqyasda aparılır ki, görülən işləri tam sadalamaq üçün günlük qeyd etmək lazım gəlir.

Bu quruculuq işləri içərisində prioritet sayıla biləcək layihələr sözsüz aldan azad edilən ərazilərdə beynəlxalq hava limanı istifadəyə verməklə ?ıq və biz bu torpaqları yüksək səviyyədə bərpa edəcəyik. İqtisadi cəhətdən isə ona görə önəmlidir ki, işğaldan azad edilmiş torpaqlarımız başdan-başa turizm mərkəzidir. Bunula da təkcə Bakıdan yox, eləcə də dünyanın bir çox ölkələrindən Füzuliyə, Laçına, Zəngilana uçuşlar təşkil edilə bilər. Məhz buna görə də işğaldan azad edilmiş ərazilərdə 3 hava limanının inşası gələcəkdə turizmin inkişafı, məcburi köçkünlərin iş yerləri ilə təmin edilməsi baxımından çox önəmlidir.

Vətənini sevən hər bir vətənpərvər insan kimi, Şuşanı ziyarət etmək məndə sözlə ifadə edilməyəcək dərəcədə güclü hisslər oyatdı. Çox böyük sevinc və qürur hissi keçirirəm. Ali Baş Komandana, ordumuza minnətdaram ki, bizə əzəli torpaqlarımızı ziyarət etmək şansı yaratdılar. Şəhidlərimizi ehtiramla anır və ruhları qarşışında baş əyirəm. Bu gün işğaldan azad edilmiş əraziləri ziyarət edən vətəndaşlarımızın əllərində üçrəngli bayrağı, "Qarabağ Azərbaycandır", "Şuşa Azərbaycandır", "Ağdam Azərbaycandır" və s. kimi şüarlar görmək çox təsirlidir. Qədim mədəniyyət diyarı Şuşada, erməni vandalları tərəfindən viran edilmiş gözəl Ağdamda olarkən kövrəlib göz yaşları axıdan insanları, dövlətimizin başlatdığı ağıllı kənd layihələrini, Ağdam Beynəlxalq Hava Limanını, qısa zamanda bərpa edilmiş yolları və infrastrukturu gördükcə bu göz yaşları sevinclə əvəz olur.

Beləliklə, Prezident İlham Əliyevin də dediyi kimi, böyük qayıdış başlayır. Düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduğumuz kimi, tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik.

*- 2022-ci ilin "Şuşa İli" elan edilməsi hansı hədəfləri özündə ehtiva edir? "Şuşa İli" milli mədəniyyətimizin inkişafına hansı töhfələri verəcək?*

- Ümummilli lider Heydər Əliyev Şuşanın ölkəmiz üçün dəyərini bu sözlərlə ifadə etmişdir: "Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur".

Şuşa həm də mədəniyyətimizin incisidir. Cabbar Qaryağdıoğlu, Keçəçi Məhəmməd, Məşədi Dadaş, Sadıqcan, Üzeyir Hacıbəyov, Bülbül, Fikrət Əmirov, Xan Şuşinski və daha onlarla məşhur musiqiçilər diyarıdır.

Qarabağ torpağı həmçinin Molla Pənah Vaqif, Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Mir Mövsüm Nəvvab, Fatma xanım Kəminə, Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov kimi şair və yazıçıların Vətənidir.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin də Vətən müharibəsinin gedişində "Şuşasız bizim işimiz yarımçıq olardı" deməsi Azərbaycanın Şuşanın işğalı ilə heç bir zaman barışmayacağının göstəricisi idi.

44 günlük şanlı qələbədən sonra ölkə başçısının Şuşa şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan etməsi mədəniyyətimizdə iz qoymuş dünya şöhrətli dahilərin ruhlarını şad etdi. Ecazkar səsləri ilə bir çox ölkələrdə alqışlarla qarşılanan Qarabağlı xanəndələrin yeni nəsil davamçıları ölməz şəhidlərimizin qanı ilə azad olunan Xarı bülbülün vətəni olan Şuşanın Azərbaycana mənsubluğunu Cıdır düzündə təşkil olunmuş musiqi festivalında bir daha bütün dünyaya çatdırdılar.

2022-ci ilin "Şuşa İli" elan olunması bu qədim diyarımızın çiçəklənməsinə, yenidən bərpa olunmasına, əvvəlkindən də gözəl və möhtəşəm görkəminin geri qaytarılmasına, yenidən şərqin mədəniyyət beşiyinə çevrilməsinə təkan verəcək. Sərəncamda Şuşanın 270 illik yubileyinin qeyd edilməsinin öz əksini tapması Qarabağımızın göz bəbəyi Şuşanın milli-mədəni irsinin daşıyıcıları olan abidələrinin bərpası prosesinin çox sürətlə aparılacağına işarədir. Sərəncamdan irəli gələn tədbirlər çərçivəsində xalqımız üçün müqəddəs olan bu şəhərə çoxsaylı ölkəmiqyaslı və beynəlxalq səfərlər təşkil olunacaq, mötəbər tədbirlər keçiriləcək.

Artıq müxtəlif dövlət qurumları Şuşa ilinə həsr olunmuş tədbirlər planı hazırlayırlar. Məsələn, Mədəniyyət Nazirliyi tərəfindən qədim şəhərimizin zəngin mədəni irsini tanıtmaq məqsədilə "Şuşa mədəniyyətinin inciləri" adlı layihəyə start verilib. "Şuşanın memarlıq salnaməsi", "Azərbaycan musiqisinin məbədi - Şuşa", "Muğam ocağı - Şuşa", "Qarabağ xalçaçılıq məktəbi - Şuşa", "Şuşanın ədəbi həyatı", "Şuşanın simaları", "Şuşa milli geyim üslubu" kimi Şuşa şəhərinin zəngin mədəniyyətini əks etdirən layihələrin həyata keçirilməsinə başlanmışdır.

Ölkə Prezidenti İlham Əliyevin tarixi çıxışında söylədiyi "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! şüarlarının reallaşdığı kimi, "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" mesajının da bütün dünyanın gözü qarşısında çox qısa zamanda reallaşacağının şahidi olacağımıza əminəm.

*- Dövlət başçısı İlham Əliyev Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda bir daha bu çağırışı etdi ki, milli-mənəvi dəyərlər dövlətimizin əsasını təşkil edir və müasir müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub. Bu əminlik də ifadə olundu ki, bu dəyərləri qoruyub saxladıqca, dövlətimiz daha da qüdrətli olacaq, xalqımız da əbədi azad, müstəqil xalq kimi yaşayacaq. Tarixi Zəfərimiz Azərbaycan xalqını dünyaya necə təqdim etdi? Milli-mənəvi dəyərlərimizə bağlılıq Qələbəmizdə nə kimi rol oynadı?*

- Dövlət gənclər siyasətinin Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gənclərinin bütün sahələrdə özünü realizə etməsi üçün əlverişli şərait mövcuddur. Gənclər siyasəti ölkəmizdə prioritet istiqamətlərdən biridir və dövlət siyasətinin mühüm, ayrılmaz tərkib hissəsini təşkil edir. Müxtəlif sahələrdə böyük uğurlar qazanmış gənclər ölkəmizin hərtərəfli inkişafına böyük töhfələr verirlər. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində fəal iştirakı ilə seçilir, siyasi, iqtisadi və sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır.

Ümummili liderimiz Heydər Əliyev demişdir: "Biz öz milli dəyərlərimizlə fəxr etməliyik. Bizim milli dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz... Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir".

Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

Bu gün dövlətimiz milli dəyərlərimizin qarantına çevrilib, ölkə başçısı İlham Əliyev xalqımızın milli dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir. Dövlət siyasətində hər bir azərbaycanlının, ən əvvəl, öz xalqının dəyərlərinə sahib çıxması, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli dəyərlərini qoruması önə çəkilir.

Azərbaycan bu gün müasirləşən, Avropa və dünya birliyinə sürətlə inteqrasiya edən ölkədir. Təbii ki, müasir dünyada sürətlə davam edən qloballaşma prosesləri bizim də ölkədən yan keçməyib. Buna baxmayaraq, qloballaşma adı altında öz milli dəyərlərimizi unutmamalı və bu dəyərlərə sadiq olmalıyıq. Milli dəyərləri hər şeydən üstün tutmalı və digər xalqların dəyərlərinin öz milli köklərimizi, milli mənliyimizi sıxışdırmasına yol verməməliyik.

Hakimiyyətdə olduğu illər ərzində Prezident İlham Əliyev Azərbaycanı etibarlı tərəfdaş, regionda və dünyada müstəqil xarici siyasət yürüdən bir ölkə kimi tanıtdı, ölkəmizin beynəlxalq əlaqələrini gücləndirdi və bunları edərkən hər zaman milli mənəvi dəyərlərimizi, milli mənsubiyyətimizi daima qorudu. Prezident İlham Əliyev milli qürur, prinsipiallıq, yenilməz iradə nümayiş etdirərək Azərbaycan xalqının milli maraqlarını qətiyyətlə müdafiə etdi, məqsədyönlü, ardıcıl siyasət apardı və bütün bunların nəticəsi olaraq tarixi Qələbə qazandıq.

Bu gün bütün dünya Azərbaycan dövlətinin qalib dövlət, xalqımızın isə qürurlu, məğrur, yenilməz xalq olduğu reallığını görür və qəbul edir. Azərbaycan xalqının qədimdən gələn qəhrəmanlıq ənənələri var. Əminliklə qeyd etmək olar ki, respublikamızda gənclərə yaradılan şərait, dövlət gənclər siyasətinin düzgün istiqamətləndirilməsi nəticəsində vətənpərvər gənclər nəsli formalaşmaqdadır. Məhz bu gənclər Ermənistanın silahlı təcavüzü nəticəsində işğal altında olan ərazilərimizin qaytarılmasında, şübhəsiz ki, həlledici rol oynadılar.

Vətən müharibəsi zamanı gənclərin könüllü olaraq torpaqlarımızın yağı düşməndən azad olunması kimi müqəddəs amal uğrunda könüllü olaraq cəbhəyə yollanması, valideynlərin övladlarını toy bayramla düşmən üzərinə göndərməsi xalqımızın milli kimliyinin, əcdadlarımızdan bizə kodlaşdırılaraq ötürülmüş milli dəyərlərimizin heç bir zaman, heç bir şərt altında unudulmadığının göstəricisidir. Bizə qalib xalq olmaq kimi milli qüruru yaşadan və milli mənəvi dəyərimizə çevrilən şəhidlərimizin ruhu qarşısında baş əyir, bu uğurda qazi olmuş gənclərimizə sonsuz minnətdar olduğumuzu bildiririk.

***- Ülviyyə xanım, bu günlərdə Milli Məclis iki dost, qardaş ölkənin-Azərbaycan və Türkiyənin müttəfiqliyinin təsdiqi olan Şuşa Bəyannaməsini təsdiqlədi. Mədəniyyət paytaxtımızın şahidliyi ilə imzalanan bu sənədi necə şərh edərdiniz?***

- Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə qardaşlığını bütün dünyaya bildirən bir mesajdır. Bu səfərin tarixi əhəmiyyəti bundan sonra uzun illər ərzində dillərdə olacaqdır. Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları ölkələrimizin birliyini nümayiş etdirmiş oldu. İkinci Qarabağ müharibəsi başlanan günün ilk saatlarından Türkiyə Prezidenti Azərbaycana birmənalı, dəqiq və açıq dəstəyini ifadə edib. Müharibənin ilk saatlarından Türkiyə prezidenti bildirdi ki, Azərbaycan tək deyil. Bu həm bizi ruhlandırdı, eyni zamanda, müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı.

Vətən müharibəsində Azərbaycanın tarixi qələbəsindən sonra Türkiyə-Azərbaycan qardaşlıq əlaqələrinin bütün dünyaya nümayiş etdirilməsi və bunun həqiqi qardaşlıq olduğunu göstərmək üçün Qarabağın incisi Şuşada iki qardaş arasında bəyannamə imzalandı.

Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə qardaşlığının həm siyasi, həm iqtisadi, həm hərbi, həm mənəvi simvoludur. Bu bəyannamənin Milli Qurtuluş Günündə, Qars müqaviləsinin yüz illiyində, həm də Şuşa şəhərində bağlanması tarixi həqiqətlərin məntiqi sonluğudur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" tarixi kəlamları ilə formalaşan iki dövlət arasındakı münasibətlər Şuşa Bəyannaməsi ilə özünün məntiqi zirvəsinə yüksəlmişdir.

Şuşa Bəyannaməsi imzalanarkən Azərbaycan Prezidenti İlham Əliyev bu siyasi aktın tarixi əhəmiyyətini vurğulayaraq demişdir: "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır".

Prezident İlham Əliyevin vurğuladığı kimi, Şuşa Bəyannaməsi Azərbaycanla Türkiyənin qardaşlığını bütün dünyaya bildirən bir mesajdır: "Bu gün qədim şəhərimiz olan Şuşadan verilən açıqlamalar bütün dünyaya səs salacaq, bunun böyük əks-sədası olacaq. Bu səfərin tarixi əhəmiyyəti bundan sonra uzun illər ərzində dillərdə olacaqdır". Prezident İlham Əliyev bu sənədin məhz Şuşada imzalanmasına dair isə belə demişdir: "Şuşada müttəfiqlik bəyannaməsini imzalayarkən əcdadımıza sadiqliyimizi nümayiş etdiririk və gələcək nəsillərə yol göstəririk". Bu tarixi sözlər imzalanan Şuşa bəyannaməsinin önəmini bir daha vurğulayır.

Bu yaxında Şuşa bəyannaməsinin həm Milli Məclis tərəfindən, ardınca isə Türkiyə Böyük Millət Məclisi tərəfindən təsdiq olunması ölkələrimizin və xalqlarımızın bütün regional məsələlərdə həmrəy olduğunu bir daha sübut etdi.

***- Hazırkı dövr, eyni zamanda, Azərbaycanın postmünaqişə dövrünün reallıqlarını dünyaya qəbul etdirmək mərhələsi kimi də səciyyələnir. Regionda davamlı sülhün və sabitliyin təmin edilməsi üçün Azərbaycanın Ermənistana təklif etdiyi sülh müqaviləsini dəstəkləyən dünya gücləri bu mühüm addımın reallaşmasına dəstək göstərməyə hazır olduqlarını bildirirlər. Bu, Azərbaycanın ədalətə və beynəlxalq hüquqa əsaslanan siyasətinin dəstəklənməsi deyilmi?***

- Doğru buyurursunuz. Lakin postmünaqişə reallıqlarının dünya ictimaiyyəti tərəfindən qəbul edilməsinə baxmayaraq, hələ də Ermənistan tərəfindən qəbul edilməməsi sülh müqaviləsinin imzalanmasını ləngidir. Bu gün ölkəmiz müharibənin başa çatdığını bəyan edib və bölgədə yaranmış yeni reallıqları dünya ictimaiyyətinə və siyasi elitasına obyektiv şəkildə təqdim edir. Bu reallıqlar bölgədə sülhün və siyasi-iqtisadi əməkdaşlığın bərqərar olmasına yönəlmişdir. Ölkəmiz bu gün Ermənistana sərhədlərin delimitasiya və demarkasiya edilməsini və ölkələrin qarşılıqlı ərazi bütövlüyünün tanınmasını təklif edir.

44 günlük şanlı zəfərimizdən sonra Azərbaycan-Ermənistan prezidentlərinin müxtəlif siyasi platformalar çərçivəsində görüşlərindən belə nəticəyə gəlmək olar ki, artıq qərb və ümumilikdə, Ermənistanın havadarları erməni riyakarlığı və saxtakarlığını artıq dəstəkləmirlər. Bunu Soçi və Brüssel görüşlərinin nəticələrini analiz etsək çox aydın şəkildə görərik. Avropa İttifaqı tərəfindən Qafqazda sülhün təmin edilməsi üçün Azərbaycanla Ermənistan arasında hərtərəfli sülh müqaviləsinin imzalanmasına çağırış edilməsi, Azərbaycanın təklif etdiyi sülh müqaviləsinin tez ya da gec qəbul ediləcəyinə bir işarədir. Aİ rəhbəri Şarl Mişel açıq şəkildə Avropa İttifaqının Azərbaycanın təklif etdiyi sülh müqaviləsinin imzalanmasını dəstəklədiyini ifadə edir. Ermənistan üz tutduğu bütün beynəlxalq təşkilatlardan rədd cavabı alır və ona Azərbaycanın təklif etdiyi sülh müqaviləsinin qısa zamanda qəbul edilməsinin zəruri olduğu bildirilir. Aİ Prezidenti məzlum imici yaradaraq ona sığınmaq istəyən Ermənistana artıq onun deyil, haqlı və güclü Azərbaycanın yanında olduğunu bildirdi.

Bundan əlavə, müharibədən sonra Ermənistanın Azərbaycana qarşı üç iddiasının Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən rədd edilməsinin şahidi olduq. Müharibə məhbuslarının dərhal geri qaytarılması, Bakıda mövcud olan Hərbi Qənimətlər Parkının bağlanılması və Azərbaycan tərəfindən törədilmiş müharibə cinayətlərinin araşdırılması ilə əlaqədar iddiaları məhkəmə tərəfindən ləğv edilməklə Ermənistan üzərinə öhdəlik qoymuşdur. Məhkəmə etnik zəmində zorakılıqla bağlı çağırışlar edən qruplaşmalara və fərdi şəxslərə qarşı Ermənistan dövləti tərəfindən təcili tədbirlər görülməsi barədə qərar qəbul etmişdi. Azərbaycana qarşı qaldırılan iddiaların ləğv edilməsi və Ermənistan üzərinə öhdəlik qoyması bunu göstərir ki, Beynəlxalq Ədalət Məhkəməsi də artıq erməni yalanlarından bezib və bundan sonra Ermənistanın populist və uydurma tələblərini yerinə yetirmək niyyətində deyil.

Ölkəmizin dünya siyasi arenasında qazandığı bütün uğurların özəyində Ulu Öndərin müdrik siyasətinin layiqli davamçısı olan Prezident İlham Əliyevin nüfuzu və güclü siyasi iradəsi dayanır. Ali Baş Komandan sülh müqaviləsi barədə demişdir: "Bizim bu təklifimiz qalib ölkənin təklifidir, güclü tərəfin təklifidir, müzəffər xalqın təklifidir. Əgər buna Ermənistanda mənfi reaksiya varsa, bunu da özləri bilərlər. Amma yenə də deyirəm, yenə də peşman olacaqlar. Biz isə bundan sonra ancaq və ancaq irəli gedəcəyik".

Bəli, Ermənistan yenidən revanşist düşüncələrə üstünlük versə, faşist düşüncəsindən əl çəkməsə, yenidən öz havadarlarına üz tutsa, dövlət başçısının dediyi kimi, budəfəki "dəmir yumruq" daha ağır olacaq.

## Misir qəzeti:

# Azərbaycan Ermənistandan məlumat tələb edir

**Misirin "Əl Masr Əl Yom" qəzetində "Azərbaycan müharibədə itkin düşmüş vətəndaşlarının taleyi barədə Ermənistandan məlumat tələb edir" sərlövhəli məqalə dərc olunub.**

Məqalədə Azərbaycan Xarici İşlər Nazirliyi rəsmisinin Ermənistanın baş naziri Nikol Paşinyanın son bir il ərzində hələ Birinci Qarabağ müharibəsində itkin düşmüş 108 nəfər azərbaycanlının qalıqlarının Azərbaycan tərəfinə təhvil verildiyi barədə fikirlərinə münasibət yer alıb. Misirli oxucuların diqqətinə çatdırılıb ki, rəsmi Bakı həmin müharibədə itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyi barədə qarşı tərəfin 30 il məlumat verməməsinin səbəbini soruşub. Azərbaycan XİN-in rəsmisi qeyd edib ki, bununla bağlı indiyədək Ermənistan hökuməti tərəfindən hər hansı açıqlama verilməsə də, 30 ildən sonra itkin düşmüş minlərlə azərbaycanlıdan cəmi 108 nəfərin qalıqlarının verilməsinin səbəbləri sırasında, əlbəttə, azad olunmuş ərazilərimizdə azərbaycanlıların kütləvi məzarlıqlarının aşkar edilməsi və dəlillərin beynəlxalq ictimaiyyətə təqdim edilməsi yer alır.




Məqalədə vurğulanıb ki, Azərbaycan 44 günlük müharibədən dərhal sonra heç bir qarşılıq gözləmədən və hələ Birinci Ermənistan-Azərbaycan müharibəsindən itkin düşmüş minlərlə azərbaycanlı haqqında Ermənistan tərəfindən hər hansı məlumat verilmədiyi bir halda, humanizm prinsiplərindən çıxış edərək, 1700-dən çox erməni hərbçisinin cəsədini qarşı tərəfə təhvil verib.

Sonda qeyd olunub ki, rəsmi Bakı itkin düşmüş şəxslərlə bağlı məsələni prioritet olaraq gündəlikdə saxlayır və hələ də taleyi barədə hər hansı məlumat olmayan 3700 dən çox azərbaycanlı ilə bağlı bilavasitə məsuliyyət daşıyan Ermənistan tərəfinin növbəti 30 il susqunluğuna icazə verməyəcək.

# İqtisadçı-ekspert: "2022-ci ildə Azərbaycan iqtisadiyyatı 4%-dən artıq çoxalacaq"

"2021-ci ilin yekunları bir daha xəbər verir ki, Azərbaycan iqtisadiyyatı artım tempini bərpa edib. Xüsusən də 5%-dən artıq artımın qeydə alınması da nəticə etibarilə Azərbaycan iqtisadiyyatında iqtisadi və sənaye potensialının genişləndirilməsi və daha dərindən istifadə edilməsi anlamına gəlir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert, millət vəkili Vüqar Bayramov deyib.



Onun sözlərinə görə, bu artım xüsusən daha çox qeyri-neft sektoru hesabına baş verir: "Yəni iqtisadiyyat 5,6 % artıbsa, qeyri-neft sektoru 8%-ə yaxın artıb. Bu da ondan xəbər verir ki, qeyri-neft sektoru Azərbaycan iqtisadiyyatında lokomotiv rolunu oynamaqdadır. Eyni zamanda işğaldan azad olunmuş ərazilərimiz də ümumi iqtisadi artım tempinə öz töhfəsini verəcək.

Nəzərə alsaq ki, cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mütəmadi olaraq işğaldan azad edilmiş ərazilərimizə səfər etmələri bir daha ondan xəbər verir ki, həmin ərazilər daha qısa müddətdə bərpa olunaraq Azərbaycan iqtisadiyyatına öz töhfəsini verəcək. Bu baxımdan bütün bunlar iqtisadi sosial potensialın balanslı və dayanıqlı şəkildə inkişaf edəcəyindən xəbər verir. Bu kontekstdən də 2022-ci ildə beynəlxalq maliyyə qurumları Azərbaycan iqtisadiyyatının 5%-ə yaxın artıracağını proqnazlaşdırırlar. Bu da kifayət qədər ciddi bir rəqəmdir. Ümumiyyətlə gözlənti ondan ibarətdir ki, 2022-ci ildə Azərbaycan iqtisadiyyatı 4%-dən artıq çoxalacaq".

***Arzu Qurbanzadə***

# Xoşbəxtlik, ruzi və arzuların simvolu

## "Xıdır Nəbi" bayramı - suyun, külək və havanın himayəçisi

ŞƏRH

Xalqımız tarix boyu öz adət-ənənələrini qoruyub saxlamış, ən çətin zamanlarda belə milli dəyərlərinə sahib çıxmışdır. Çoxəsrlik tarixində özünəməxsusluğu qoruyub saxlaya bilmişdir. Bu gün həmin dəyərlərin fonunda Azərbaycan xalqı öz tarixi keçmişinə söykənərək milli-mənəvi dəyərləri, ənənələri, əxlaqi keyfiyyətləri ilə dünya xalqları arasında seçilir və diqqəti çəkir. Əlbəttə ki, hər bir xalqın özünəməxsus dəyərləri, keyfiyyətləri mövcuddur və onları yaşatmağa çalışır. Zəngin irsə malik olan Azərbaycanda keçirilən bayramlar da xalqın genetik yaddaşından süzülüb gələrək onun milli-mənəvi dəyərlərini əks etdirir. Azərbaycan mənəvi mədəniyyətinin tərkib hissəsi olan bayramlar xalqımızın həyatında mühüm yer tutur. Qədim tarixi özündə ehtiva edən Azərbaycan xalqının məişətində mövcud olan bir çox bayramların tarixi qədimdir və onların başlanğıcı eramızdan əvvəlki minilliklərə söykənir. Məlumdur ki, bayramlar öz məzmununa görə dini və dünyəvi bayramlara bölünür. Azərbaycanda Ramazan bayramı, Qurban bayramı kimi dini bayramlarla yanaşı, dünya xalqları ilə bərabər olaraq qeyd etdiyi bayramlara da təsadüf olunur.



Qədim tarixə malik olan və el arasında geniş yayılmış bayramlardan biri də "Xıdır İlyas" və ya "Xıdır Nəbi" adlandırılan mərasimdir. Bu bayram Azərbaycanda "Xızır Nəbi" bayramı, İranda Əhli-haqq zümrələri arasında Zati Mutlaq şərəfinə Əli-Heydər adıyla, Təbriz ətrafındakı Qızılbaşlar zümrəsində isə yenə də "Xızır Nəbi" bayramı adı ilə tanınır. Bu bayram Azərbaycanın demək olar ki, bütün bölgələrində keçirilir. Naxçıvanda, eləcə də Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Cəbrayıl və Füzuli rayonlarında təntənəli şəkildə qeyd olunub. Mənbələrdə göstərilir ki, rus tədqiqatçısı T.F.Aristova Laçın, Qubadlı və Zəngilan rayonlarında bu bayramın qeyd edilməsi prosesləri haqqında maraqlı məlumat verir. Qeyd edir ki, qışın ortalarında keçirilən bu bayramda azərbaycanlı qadınlar ailəsinin salamatlığı üçün sacda qovurğa qovurar, çay və bulaq kənarında müxtəlif rənglərlə bir neçə yumurta qoyaraq niyyət edirdilər. Ertəsi gün yumurtalara baxırdılar. Əgər yumurta qırmızı rəngə boyanmışdırsa yaxşı, qara boyanırdısa pis əlamət yozurdular.

"Xıdır İlyas" adətən, təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi və s. təbii proseslərlə müşayiət edilir. Tədqiqatlarda "Xıdır Nəbi" bir şəxsiyyət olaraq "suyun, külək və havanın himayəçisi" kimi təqdim olunur. Qeyd edim ki, "Xızır Nəbi" bayramı Novruz bayramından əvvəl keçirilir. Bu bayramın keçirilməsi kiçik çilləyə təsadüf edilir. Bayramın tarixi günü ilə bağlı tədqiqatçılar, folklorşünas alimlər müxtəlif fikirlər irəli sürürlər. Bəzi mənbələrdə həmin bayramın kiçik çillənin qurtarmasına 2-5 gün qalmış, bəzilərində həmin mərasimin kiçik çillənin onuncu günündə, bəzilərində isə böyük çillədən dörd və kiçik çillədən üç gün olmaqla yeddi gün ərizində keçirildiyinə təsadüf edirik. Azərbaycanın xalq yazıçısı Əzizə Cəfərzadə isə "Xıdır İlyas" mərasiminin kiçik çillənin qurtardığı son üç gündə keçirildiyini göstərir. Başqa bir mənbədə isə "Xıdır Nəbi" bayramının fevralın 12-dən 20-dək keçirildiyi qeyd olunur.

### XIDIR NƏBİ, XAN İLYAS, AÇDI ÇİÇƏK, GƏLDİ YAZ.

Xoşbəxtlik, ruzi, arzuların simvolu olaraq qeyd olunan bayramın kiçik çillənin çıxması münasibətilə keçirilməsi həm də qədim əkinçilik görüşləri ilə əlaqədardır.

"Xıdır İlyas" mərasiminə xüsusi hazırlaşırdılar. Xalq arasında belə inam vardır ki, əgər "Xıdır Nəbi" Boz atında gələrkən evlərdə bayram əhval-ruhiyyəsi görməzsə küsüb gedirdi. Xıdırın küsüb getməsi isə ruzi-bərəkətin yox olmasına səbəb olar, baharın gəlməsi gecikər. Buna görə də hələ kiçik çillənin birinci günündən başlayaraq bayram tədarükü görülürdü.

Üç gündən ibarət olan "Xıdır Nəbi" bayramının birinci günü torpaq tərif olunardı. Torpağın üstündə od qalanardı ki, torpağın nəfəsi qızınsın. Bağlar təmizlənər, çör-çöp, xəzəl yığılıb yandırılardı. Bayramın ikinci günü evdəki hər öküzün adına üç duzsuz kömbə bişirilib öküzlərin qarnının altından diyirləyər və oxuyardılar:

*Xıdır Nəbi, xan İlyas,*
*Açdı çiçək, gəldi yaz.*
*Mən Xıdırın quluyam,*
*Boz atının çuluyam.*

Bayramın üçüncü günü cütcü və əkinçinin şəxsində torpağı becərən, şum şumlayan, əkin əkən əməkçilər tərif olunardı. Boz at üzərində gələcək Xıdır Nəbinin əlində od olacağı güman edilərdi. Onun torpağı isidəcəyi, odla yanaşı günəş və suyun adamlara sağlamlıq gətirəcəyi düşünülərdi. Mərasimdə əkinçi, cütçü və sayaçı nəğmələri oxunar, "Xıdır Nəbi"yə nəğmələr, şeirlər qoşulardı. Bayramın hər üç günündə cavanlar əkin yerlərindən keçib Xıdır Nəbini axtarmağa gedərdilər. Onlara "Xıdırçı" deyərmişlər. Xıdırçılar hava işıqlanmazdan əvvəl əllərində şam Xızırın dalınca gedər və nəğmələr oxuyardılar.

### "XIDIR NƏBİ" MƏRASİMİ MİFİK OBRAZIN MÖVCUDLUĞUNU YADDAŞLARDA MÖHKƏMLƏNDİRİR

Bayramın atributu isə qovrulmuş buğda və qovuddur. Bundan başqa digər paxlalı bitkilər, çərəz də mütləq süfrəyə qoyulmalıdır. Xəşil də ki, öz qaydası ilə. Ümumiyyətlə, qışda keçirilən bayramların hamısında bu xörək növü hazırlanır. Bayramda daha çox sevinən uşaqlardır. "Xıdır Nəbi" günü, Novruzda olduğu kimi, uşaqlar qapı-qapı gəzib papaq atırlar. Axşam şər qarışanda isə cavanlar və uşaqlar dəstələnib evləri qapı-qapı gəzərək "Xıdır" nəğməsini oxuyar və bayram payı yığardılar. Hansı qapıdan içəri girsələr, əvvəlcə dəstədən bir adam irəli çıxıb avazla oxuyardılar:

*Mən Xıdırın quluyam,*
*Göy atının çuluyam.*
*Ağzının arpasıyam*
*Ayağının nalıyam.*

Toplanan pay isə bərabər şəkildə bölünürdü. Bundan başqa həmin gün yükün altına qovud qoyarlar. Xalq inanclarına görə, əfsanəvi Xızır Peyğəmbər gəlib bu qovuda toxunarsa, həmin il o evdə ruzi-bərəkət olar. Bunu bilmək üçünsə ev sahibi səhər ertədən qovudun üzərində Xızırın atının izini axtarır. Hər hansı bir işarə varsa, deməli, niyyəti baş tutub.

Azərbaycan folklorunda Xızırla bağlı inamlar da sayca üstünlük təşkil edir. "Xıdır payı"ndan ertəsi günü yağla kömbə bişirər, qovut çəkilər və dəstənin üzvləri arasında bölünərdi. "Xıdır Nəbi" bayramında yumurta döyüşdürülərdü. Hansı yumurta sınsa, sahibi uduzmuş hesab olunurdu. Bu bayramda qapıpusma mərasimi də keçirilirdi. Qulaqları barmaqla yumaraq niyyət tutur və "filan evə qapı pusmağa gedirəm"- deyilərdi. Həmin qapıya çatanda qulağı açar, niyyəti eşitdiyi ilk sözlə sınayardılar. Qovurğanı məcməyiyə yayıb boş otaqda səhərədək saxlayardılar. Əgər səhər qovurğanın üzərində əl izləri görünsəydi, deməli, Xıdır İlyas o evə gəlmişdi, həmin il ailə üçün xoşbəxt il olardı.

Bütün bunlar göstərir ki, "Xıdır Nəbi" mərasimi xalq bayramı olmaqla yanaşı, həm də mifik bir obrazın - Xıdır İlyasın mövcudluğunu, mərasimlərdə şəxsən iştirak etdiyi barədə fikri yaddaşlarda möhkəmləndirir.

***Zümrüd BAYRAMOVA***

---

# Milli Demokratiya Fondunun qrantları demokratiyaya xidmət edir

**Azərbaycan cəmiyyətində ABŞ-a birmənalı münasibət yoxdur. Buna səbəb müstəqilliyinin bərpasının ilk illərində, demokratik inkişaf yolunu tutan, torpaqlarını Ermənistanın işğalından azad etmək istəyən ölkəyə qarşı ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək" Aktına qəbul edilməsi idi.**

1992-ci ildə qəbul olunan "907-ci düzəliş" adlanan bu sanksiya Azərbaycana Amerikanın birbaşa dövlət yardımını yasaqlayırdı. ABŞ-ın indiki prezidenti Cozef Bayden düzəlişin qəbulunda fəal rol oynayıb və onun ləğvinə qarşı dəfələrlə çıxış edib. Bu sanksiya indiyədək ləğv olunmayıb. Onu müvəqqəti olaraq dondurublar.

Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra ABŞ-da bu istiqamətdə də çıxışlar olub.

Məsələn, bir neçə ay əvvəl Ştatların İrəvandakı səfiri Linn Treysi erməni lobbisini nümayəndəsi kimi çıxış edərək bildirmişdi:

"30 illik müharibə və gərginlik bir gecədə həll oluna bilməz. Ancaq başa düşürük ki, burada həll edilməli olan bəzi təməl məsələlər var. Onlardan biri də, artıq dediyim kimi, budur ki, biz Dağlıq Qarabağın statusunu həll olunmuş hesab etmirik. Və bunu Minsk qrupunun gündəliyində saxlamağa davam edəcəyik".

Bu tip çıxışlar Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə yönəlib. Bu baxımdan Linn Treysi beynəlxalq hüququn və BMT-nin əsas prinsiplərini də pozub. Məqsədimiz erməni lobbisinin maraqlarını ifadə etmiş səfirin çıxışına münasibət bildirmək deyil.

Bütün haqlı və haqsız bəyanatlarına baxmayaraq Azərbaycana münasibətdə ölkə ictimaiyyəti ABŞ-dan hər zaman ədalətli qərarlar gözləyir. Hazırda işğaldan təmizlənən Azərbaycan torpaqlarında quruculuq işləri görülür. Ölkə ictimaiyyəti qaçqınların öz yurdlarına qayıtması üçün indiki şəraitdə ABŞ-dan və müxtəlif maliyyə qurumlarından daha böyük dəstək gözləyir.

Ancaq ABŞ-ın Milli Demokratiya Fondu (Azərbaycanda həyata keçirilməsi məqsədilə) mücərrəd məsələlər üzrə 15 yeni qrant layihələrini təqdim edib.

Fondun rəsmi saytında dərc olunan məlumata əsasən, qrantlar insan haqları, şəffaflıq (korrupsiya ilə mübarizə), müstəqil KİV və ölkədə demokratiyanın inkişafı istiqamətləri üzrədir. Qrantların dəyəri 26 345 - 156 358 ABŞ dolları diapazonundadır.

Ən böyük qrant "Azərbaycanda müstəqil KİV-ə dəstək" üzrədir. Ümumiyyətlə, KİV-lə bağlı 3 istiqamət mövcuddur: "Müstəqil xəbər veb-saytı" (96 900 ABŞ dolları), "Xəbər aqreqatoru" (34 028 ABŞ dollar), "Azərbaycanda müstəqil KİV-ə dəstək" (156 358 ABŞ dolları).

Fond qrant alan tərəflərdən Azərbaycanda baş verən arzuolunmaz hadisələri - insan haqlarının pozulması, korrupsiya və s. faktlar - araşdırmağa, işıqlandırmağa, hesabatlar hazırlamağa tələb edir.



Qrantların ümumi məbləği 970 235 ABŞ dollarıdır.

İllərin təcrübəsi isbatlayıb ki, bu kimi qrantlar daha çox ölkələrdə sabitliyin pozulmasına xidmət edir. Çünki oxşar layihələr keçmiş sovet respublikalarının bir çoxunda reallaşdırılıb. İndiyədək o ölkələrdə elan edilən istiqamətdə nəticələr əldə olunmayıb.

Son illər Ukraynada və Misirdə baş verənlər bunun ən bariz nümunəsi ola bilər. Krım yarımadası belə qrantı ayıranların gözü qarşısında bir gecədə ilhaq edildi. İndi isə Ukrayna Rusiya ilə üz-üzə qoyulub. İki qardaş dövlət müharibə vəziyyətindədir. Bu hal perspektivdə Ukraynada vətəndaş müharibəsinə də cevrilə bilər.

Hadisələr deməyə əsas verir ki, bu tip qrantlar demokratik dəyərlərin inkişafından çox qarşıdurmaya, regional münaqişələrin yaranmasına xidmət edir. İllər uzunudur Ermənistan əhalisi və dünya ermənilər bu tip layihələrlə maliyyələşdirilir. Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxlamaq belə layihələrlə ermənilərə yardım edilib.

Ehtimal etmək olar ki, bir milyon dollara yaxın maliyyə vəsaiti xaricdə fəaliyyət göstərən Azərbaycana qarşı olan qruplara veriləcək.

Hadisələr onu da təsdiqləyib ki, bu layihələr "mənə işlə" prinsipinə əsasən reallaşır.

Azərbaycanı sevənlər, burada demokratiyanın inkişafını istəyib, dəstəkləyənlər indiki şəraitdə qaçqın düşənlərin yurdlarına qayıtması üçün quruculuq işlərinə maliyyə vəsaiti ayırsa daha faydalı olar. Bu, həm onların illər uzunu pozulan insan hüquqlarının bərpasına yardım olar.

***Sədrəddin İsmayılov***

# Deputat Ramil Həsən 1 illik hesabat verdi

Yola saldığımız 2021-ci il dövlətimiz və xalqımız üçün uğurlu illərdən biri oldu. Bütün dünyada tüğyan edən COVİD-19 pandemiyası bir çox ölkələri iqtisadi cəhətdən çətin durumla qarşılaşdırsa da bizim ölkəmizdə heç bir siyasi-iqtisadi böhran yaşanmadı. İşğaldan azad edilmiş torpaqlarımızın yenidən cənnətə, gülüstana çevrilməsi ilə bağlı çox böyük addımların atılması, həmin ərazilərdə "Ağıllı kənd" layihələrinin həyata keçirilməsi, "Füzuli" Beynəlxalq Hava Limanının tikilib istifadəyə verilməsi, Füzuli, Zəngilan rayonlarının, eləcə də Şuşa şəhərinin avtomobil yollarının asfaltlanması və yeni avtomobil yollarının çəkilməsi hər birimizin gözü önündədir. Biz bütün bunlara qətiyyətli, uzaqgörən siyasi rəhbərin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilik və bacarığı sayəsində nail olduq.




Ötən hesabat dövründə olduğu kimi, 2021-ci ildə də vətəndaşların üzləşdiyi çətinliklərin aradan qaldırılmasında yerli icra hakimiyyəti orqanları və aidiyyatı qurumlarla birlikdə çalışaraq bir çox məsələlərin vaxtında və yerində həllinə nail olmuşuq.

Qeyd etmək istərdim ki, millət vəkili olaraq fəaliyyət göstərməyim üçün Yeni Azərbaycan Partiyası Ucar rayon təşkilatının qərargahının binasında şərait yaradılmış, rayon sakinlərinin qəbul edilməsi təmin olunmuşdur. Hakim partiyanın namizədi kimi parlamentdə təmsil olunduğum üçün fəaliyyətimin ən önəmli istiqamətləri Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində müstəsna xidmətlərinin və Möhtərəm Prezident Cənab İlham Əliyevin rəhbərliyi altında son 18 il ərzində qazanılan, müasir dünya tərəfindən qəbul olunan uğurlarının seçicilərim arasında təbliği təşkil edir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı olaraq fəaliyyətə başladığım ilk gündən etibarən çalışmışam ki, seçicilərin qaldırdığı məsələlərə diqqətlə yanaşaraq, hər bir vətəndaşın, seçicinin üzləşdiyi çətinlikləri aradan qaldırmaq üçün əlimdən gələni əsirgəməyim. Seçicilərimlə 2021-ci ildə də sıx əlaqədə olmuş, 132 nəfərin telefon danışığı vasitəsilə, 2021-ci ilin dekabr ayının sonunadək 133 nəfərin, 2021-ci ilin yanvar ayında 11 nəfər olmaqla, ümumilikdə 144 nəfərin şifahi müraciəti dinlənilmişdir. 2021-ci ilin fevral, aprel, iyul, sentyabr, oktyabr, noyabr, dekabr və 2022-ci ilin yanvar ayı ərzində seçicilərimlə rayon mərkəzində və kəndlərdə 18 dəfə səyyar görüş keçirilmiş, ümumilikdə 499 nəfərin müraciəti tərəfimdən dinlənilmiş və hər bir seçicinin müraciəti qanunamüvafiq cavablandırılmışdır. Sosial şəbəkələr vasitəsilə 119 nəfərin, 132 nəfərin isə yazılı müraciəti araşdırılaraq aidiyyatı qurumlara məktublar ünvanlanmışdır.

Əhalinin üzləşdiyi çətinliklər əsasən işsizlik, kəndlərdə su çatışmazlığı, kənd yollarının narahat vəziyyətdə olması, mavi qaz yanacağı olmayan ərazilərdə (Ucar şəhər Məlikballı Qurban küçəsi, Qulabənd kəndi ərazisində 16 mənzilli pambıqzavod yaşayış binası, Şahlıq kəndi) qaz xəttinin çəkilişi, Tibbi Sosial Ekspert Komissiyasının ərazi idarəsinin fəaliyyəti ilə bağlı olmuşdur. Onu da qeyd edim ki, ötən dövr ərzində qaz çəkilişi ilə bağlı qaldırılmış məsələlərdən biri, Ucar şəhər Məlikballı Qurban küçəsinin qazlaşdırılması 2021-ci ilin oktyabr ayında başa çatdırılmış, Şahlıq kəndinin qazlaşdırılmasına isə 2022-ci ilin yanvar ayından start verilmişdir. Vətəndaşların problemlərinin həlli istiqamətində mümkün olan variantlar araşdırılıb, səlahiyyətim çərçivəsində həll olunması mümkün olanlar icra olunub və ya nəzarətdə saxlanılmaqla aidiyyatı qurumlara ünvanlandırılmışdır.

Hesabat ili müddətində 1026 seçicidən müraciət qəbul etmişəm, bu müraciətlərdən 73 %-i müsbət həllini tapıb, 5,7 %-i hazırda icraatda olan müraciətlərdi, 21,3 % isə əsassız müraciətlər olub. Vətəndaş qəbulu zamanı seçicilərin müraciətlərinin 28 %-i infrastruktur, 11 %-i təmirtikinti, 9 %-i şəxsi problemlər, 33 %-i sosial problemlər, 11 %-i səhiyyə və 8 % hüquqla bağlı müraciətlər olmuşdur. Onu da qeyd edim ki, təkcə seçildiyim dairənin seçicilərinin yox, başqa dairələrdən olan şəxslərdən ünvanlanan məktub və müraciətlərə də hər zaman xüsusi diqqətlə yanaşıram. Belə müraciətlərə misal olaraq Qəbələ, Ağsu, Zəngilan, Zaqtala və Abşeron rayonlarından, həmçinin Bakı şəhərindən daxil olan müraciətləri göstərmək olar.




Ötən dövr ərzində seçicilərimin mənə ünvanladığı müraciətlərə əsasən, Ucar rayonundakı su çatışmazlığı, meliorativ tədbirlərin aparılmaması, kənd yollarının asfaltlanması, tibbi sosial ekspert komissiyalarının fəaliyyəti, rayonun bir neçə kəndlərində internet şəbəkəsinin olmaması və həmçinin respublikanın bütün regionlarına aid olan gənc ailələrin yaşayış evlərinin elektrik enerjisi ilə təminatında yaranmış çətinliklər barədə Milli Məclisin plenar iclaslarında tərəfimdən məsələlər qaldırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin çağırışına müvafiq olaraq və 91 saylı Ucar Seçki Dairəsindən seçilmiş millət vəkili olaraq öz şəxsi təşəbbüsüm əsasında yaradılmış və həyata keçirilən "TƏK MİLLƏT, TƏK ÜRƏK" Beynəlxalq Hümanitar Platforması çərçivəsində Türkiyə Diyanet Vakfının və Qızıl Ay Cəmiyyətinin, "İnvestAz" Qrupun, "For Azerbaycan" təşkilatının, "Sirab" Şirkətinin dəstəyi ilə 2021-ci ilin yanvar ayında 15 şəhid ailəsinə, 4 aztəminatlı ailəyə, fevral ayında 5 xüsusi qayğıya ehtiyacı olan ailəyə, mart ayında "Novruz bayramı" ərəfəsində 21 aztəminatlı ailəyə, aprel ayında 22 şəhid ailəsinə, may ayında 30 qazi və aztəminatlı ailəyə, iyul ayının 20-21 tarixində Qurban bayramı günlərində 80 aztəminatlı ailəyə, sentyabr ayında 3 ailəyə, oktyabr ayında 24 şəhid ailəsinə, dekabr ayının 28-29 taixində "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" və "Yeni il" bayramı ərəfəsində 40 qazi və aztəminatlı ailəyə, eləcə də xüsusi qayğıya ehtiyacı olan insanlara ərzaq yardımları edilərək hər bir ailənin sosial vəziyyəti ilə maraqlanılmışdır.

Əlavə olaraq bildirmək istəyirəm ki,2021-ci ilin sentyabr ayının sonunda "TƏK MİLLƏT, TƏK ÜRƏK" Beynəlxalq Hümanitar Platforması çərçivəsində Azərbaycanımızın müxtəlif regionlarından olan şəhid və qazi övladları, o cümlədən qazilər, ümumilikdə 25 nəfər gəncimiz qardaş Türkiyə Cümhuriyyətinin "Sivas Cümhuriyyət Universiteti"nə təhsil almaq üçün yola salınmışdır.

Türkiyə Cümhuriyyətinin və müvafiq qurumların dəstəyi ilə "TƏK MİLLƏT, TƏK ÜRƏK" Beynəlxalq Hümanitar Platforması çərçivəsində növbəti ildə də bu xeyirxah missiyamızı davam etdirəcək, şəhid və qazi ailələrimizi, onların doğmalarını sevindirməyə davam edəcəyik.

2021-ci ildə Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə ölkə daxilində və ölkə xaricində keçirilən yerli və beynəlxalq tədbirlərdə yaxından iştirak etmişəm. Buna misal olaraq 2021-ci ilin oktyabr ayında Yeni Azərbaycan Partiyası və Türkiyə Cümhuriyyətinin hakim partiyası, "AK" Parti arasında əməkdaşlıq çərçivəsində beynəlxalq videokonfransı, noyabr, dekabr aylarında Yeni Azərbaycan Partiyası sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə birlikdə İstanbulda keçirilən XII Boğaziçi Sammitində, Qazaxıstanda keçirilən "Qazaxıstan siyasi partiya sisteminin təkamülü: çağırışlar, naliyyətlər və perspektivlər" Beynəlxalq Forumunda, Ukraynada keçirilən Yeni Azərbaycan Partiyası ilə Ukraynanın "Xalqın Xidmətçisi" Partiyası arasında əlaqələrin qurulması və əməkdaşlıq çəçivəsində görüşlərdəki iştirakımı göstərmək olar. Hesabat ili ərzində 26 dəfə xarici ölkələrin və təşkilatların nümayəndələri ilə görüşlərdə, sammitlərdə, konfrans və videokonfranslarda iştirak etmişəm.

"Vətən Müharibəsi"nin birinci ildönümü ilə əlaqədar "Tədbirlər Planı"na uyğun olaraq 18 oktyabr 2021-ci il tarixdə şəhid mayor Elnur Hacıyevin ildönümü mərasimində iştirak etdim, şəhidimizin anasına, həyat yoldaşına və övladına başsağlığı verərək səbir dilədim.İldönümü mərasimindən sonra "Ucar Gənclər Evi" Sosial Xidmət Müəssisəsində "Müstəqilliyimizin bərpası- 30: Zəfər Bayramı gənclərin gözü ilə" mövzusunda gənclərlə görüşümüz keçirildi. Ucar rayonunun Alpout kəndində 24 oktyabr 2021-ci il tarixdə şəhid kiçik gizir Kərim Əliyevin ildönümü mərasimində iştirak edərək şəhidimizin evində valideynləri və yaxın qohumları ilə görüşüb, onlara başsağlığı verərək səbir dilədim. Onu da qeyd edim ki, 2021-ci ilin noyabr ayının 6-da şəhid gizir Ələkbərov Allahverdi Məzahir oğlunun ailəsini ziyarət edərək, şəhidin övladları Əlihüseyn və Fidan Ələkbərovların adgünündə ailənin qonağı olaraq, şəhidin övladlarına öz xoş arzularımı çatdırdım. Şəhid ailəsi ilə görüşdən sonra "Ucar Gənclər Evi" Sosial Xidmət Müəssisəsində "Zəfər Günü - müqəddəs və tarixi həqiqətin bərpası" mövzusunda gənclərlə söhbət edildi və eyni zamanda Qarabağ Vətən Müharibəsi qaziləri ilə görüşüb, onların üzləşdiyi bir çox çətinliklərlə yaxından tanış olduqdan sonra müəyyən addımların atılması üçün lazımi məsləhətlərimi verdim. Həmin gün 06 noyabr 2021-ci il tarixdə Azərbaycan Velosiped İdman Federasiyası, Respublika Olimpia Velosiped Məktəbi və Ucar rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Ucar rayonunda "8 Noyabr-Zəfər Günü"nə həsr olunmuş rayonun ümumtəhsil məktəbləri arasında velosiped idman növü üzrə keçirilmiş "Zəfər" kuboku yarışının açılışında iştirakçıları salamladım və yarışı izləyərək sonda qaliblərin təltif edilməsində iştirak etdim. "8 Noyabr - Zəfər Günü" münasibətilə Ucar rayonunda 8 noyabr 2021-ci il tarixində keçirilmiş bayram tədbirində iştirak edən şəhid ailələri ilə görüşüb onlara səbir dilәmiş, qazilərə isə tezliklə öz sağlamlıqlarına qovuşmalarını arzulamış, bayram tədbirindən sonra Ucar rayon İcra Hakimiyyətinin Başçısı Mənsur Məmmədov və rayon hüquq-mühafizə orqanlarının rəhbərləri ilə birlikdə "Zəfər Günü" ilə əlaqədar ağacəkmə aksiyasında iştirak etdim.

Hesabat dövründə televiziyalar, mətbuat orqanları və sosial şəbəkə ilə sıx təmasda olmuş, respublikada və eləcə də dünyada baş verən aktual məsələlərlə bağlı mütəmadi olaraq fikirlərimi bildirmişəm. Belə ki, elektron mediada 87 müsahibə, dövrü mətbuatda 58 müsahibə və 11 məqaləm dərc edilib, xarici və yerli televiziya kanallarında 65 verlişdə müzakirələrə qoşulmuşam, internet televiziya kanallarında 163 müsahibə və çıxışlarım yayımlanmışdır.

1 illik fəaliyyət dövrüm ərzində görülən işlər, o cümlədən gündəmdə olan daxili və xarici siyasətlə əlaqədar məlumatların hər kəs üçün əlçatan olması üçün Ramil Həsən rəsmi "facebook" və "tvitter" sosial şəbəkəsində izləyicilər üçün mütəmadi olaraq məlumat xarakterli yazılar yerləşdirilmişdir.

Hesabatımın sonunda onu da qeyd edim ki, qarşıdakı müddət ərzində ölkə rəhbəri cənab İlham Əliyevin "Biz Birlikdə Güclüyük" şüarını əldə rəhbər tutaraq, seçicilərimlə daim sıx ünsiyyətdə olacaq və onların üzləşdiyi çətinliklərin aradan qaldırılmasında aidiyyatı qurumlarla birgə fəaliyyət göstərəcək, dövlət başçımız Möhtərəm Prezident cənab İlham Əliyevin vurğuladığı kimi, xalqa xidmət göstərəcək, xalqın hər bir nümayəndəsinin sosial rifahının yaxşılaşdırılması naminə "dövlət-xalq" birliyinin prinsiplərinə uyğun olaraq əlimdən gələni edəcəyəm.

***Ramil Həsən***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin deputatı***

# ŞUŞA BƏYANNAMƏSİ -

## Türkiyə-Azərbaycan müttəfiqliyinin sübutu

Bu gün bəşəriyyət son dərəcə mürəkkəb tarixi şəraitdə yaşayır. Belə ki, koronavirus pandemiyası başlayandan bəri ölkələrarası vəziyyətdə də bir dəyişiklik hiss olunmaqdadır. Xüsusilə də, Azərbaycan və Türkiyə arasında qardaşlıq münasibətləri bir çox dövlətlərin qısqanclığına səbəb olub. Çünki hər iki dövlət yaxşı gündə də, pis gündə də bir-birinin yanındadır. Hər iki dövlət eyni yolu yaşayır. Çünki Azərbaycanla Türkiyə arasındakı münasibətlərin dünyada analoqu yoxdur. Siyasi liderlər dəfələrlə bu faktı təsdiq ediblər. İkinci Qarabağ müharibəsindən sonra iki qardaş ölkənin münasibətlərinin inkişaf xarakteri



***SEYFƏDDİN ƏLİYEV, YAP Masallı rayon təşkilatının sədri***

və dinamikası göstərir ki, yeni tarixi şəraitdə onlar daha dərin və əhatəli əlaqələr səviyyəsinə keçməkdə qətiyyətlidirlər. Bu baxımdan Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının və birliyinin yeni təsdiqi sayılan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi hər iki ölkə ilə yanaşı, region və dünya üçün də son dərəcə böyük əhəmiyyət kəsb edir.

Ulu öndər Heydər Əliyev tərəfindən möhkəm özüllər üzərində qoyulmuş "Bir millət, iki dövlət" dostluq və qardaşlıq münasibətləri bu gün dövlətimizin başçısı cənab İlham Əliyev tərəfində uğurla davam etdirilir. Prezident İlham Əliyev çıxışlarının birində bu məsələyə münasibət bildirərək deyib: "Mən dəfələrlə demişəm ki, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur. Bu, həqiqətdir. Bu, həm tarixi və etnik köklərə əsaslanan həqiqətdir, eyni zamanda, biz - iki qardaş ölkə öz siyasətimizlə bu birliyi möhkəmləndiririk" fikirləri bir daha təsdiqləyir ki, "bir millət, iki dövlət" vəhdətini heç bir kənar qüvvə poza bilməz. Və bu gün iki dövlət arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlıq yüksək səviyyədə davam edir.

Hər iki ölkə arasındakı hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq, ölkəmizdə hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin keçirilməsi artıq ənənə halını alıb. Bu, həm də əsgər və zabitlərimizin döyüş qabiliyyətini artırır. Eyni zamanda, Türkiyə və Azərbaycan regional əməkdaşlıq prosesinin fəal və əsas söz sahibi olan iştirakçılarıdır.

Bu yerdə bir məqamı da xatırlatmaq istərdim. Belə ki, 2014-cü ilin aprelində Çexiyanın paytaxtı Praqada dövlət və hökumət başçılarının iştirakı ilə Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammit keçirilirdi. Türkiyə proqramın iştirakçısı olmadığından Zirvə görüşündə onun təmsilçisi yox idi. Ermənistanın ovaxtkı prezidenti Serj Sarkisyan sammitin plenar iclasında söz alaraq mövzunu kənara qoyub Türkiyəni hədəfə aldı. O, görüş iştirakçılarını inandırmağa çalışırdı ki, Avropa ictimaiyyəti "soyqırımı" törətdiyinə görə Türkiyəyə münasibətdə daha sərt



mövqe tutmalıdır. Sarkisyan iddia edirdi ki, Türkiyənin Ermənistanla sərhədini bağlaması beynəlxalq hüquqa ziddir və s. Sammitdə iştirak edən Prezident İlham Əliyev erməni həyasızlığının Praqada növbəti təzahürünü nəzərdən qaçıra bilməzdi. Dövlətimizin başçısı çıxışına başlayaraq dedi: "Bu masanın arxasında Türkiyənin nümayəndələri yoxdur: Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm".

Göründüyü kimi, budur "bir millət, iki dövlət" birliyinin məntiqi nəticəsi. Bir məqamı da vurğulayaq ki, Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin yüksək səviyyəsi bəlli dairələri qıcıqlandırır. Belə ki, Azərbaycan öz ərazisində Türkiyə ilə hərbi təlimlər keçirəndə, hansısa arzu olunmayan ölkədən silah alanda, qıcıqlanırlar. Azərbaycan təbii qazının Gürcüstan və Türkiyə ərazisi ilə xarici bazara nəql edəndə, yaxud Türkiyə Qarabağ probleminə münasibətdə Azərbaycanın ədalətli mövqeyini birmənalı şəkildə dəstəkləyəndə, qardaşının yanında olduğunu bildirəndə qıcıqlanırlar. Türkiyə Qərbdən yox, başqa mənbədən silah alanda qıcıqlanırlar. Türkiyə dünyanın ən böyük hava limanını inşa edəndə qıcıqlanırlar. Qoy qıcıqlansılar, lakin Azərbaycan və Türkiyə üçünsə ən əsası odur ki, heç vaxt biri-birini tək qoymasınlar, çünki tale onları birlikdə olmağa məhkum etmişdir.

Azərbaycanın apardığı bu düşünülmüş və uğurlu siyasət Prezident İlham Əliyevin hücum diplomatiyası nəticəsində beynəlxalq təşkilatlar haqq işimizə dəstək verir. Prezitdent İlham Əliyev çıxışlarında dəfələrlə sübut edib və bildirib: "Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik".

Göründüyü kimi, bu, sadəcə, siyasi mesaj kimi qəbul olunmamalıdır. Dövlət başçısı tərəfindən səsləndirilmiş bu sözlər özünə inanan və potensialına güvənən siyasi liderlərə məxsus olan keyfiyyətdir və ümumən Azərbaycanın mövqeyini, gücünü, beynəlxalq münasibətlər sistemində yerini və Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür. Və 2021-ci il iyunun 15-i tarixində mədəniyyət mərkəzimiz Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir. Bu, regionda 200 ilə yaxın davam edən geosiyasi konfiqurasiyaların dağıdılması və bundan sonra Azərbaycan-Türkiyə tandeminin rəhbərliyi altında davam edəcək yeni regional düzənin başlanğıcı, iki ölkə arasında münasibətlərdə inqilabi gerçəklikdir.

Bir sözlə, ŞUŞA BƏYANNAMƏSİ: "Bir millət, iki dövlət"in müttəfiqliyini, qardaşlığını ən üst səviyyəyə qaldıran iki imzanın lider müəlliflərinin birliyidir.

# Ermənilər

## "milli rüsvayçılıq"dan hələ də narazıdırlar...

**...Bu gün siyasi analitiklərin fikrincə, yaz ərəfəsində yenidən başlaya biləcəyi ehtimal olunan müxalifətin küçə dalğası ilk növbədə müharibədən sonrakı dövrün faktlarını inventarlaşdırıb, tələb və metodologiyanı dəqiqləşdirməlidir.**

Bundan əlavə, Nikolun zorakı addımlarına qarşı çıxıb onun istefa verməsinə nail olmaq lazımdır. Bu gün Nikola müraciət edib, onu başa salmağa çalışmağın isə heç bir mənası yoxdur. Çünki o xoşluqla getməyəcək. Burada ölkədəki deputatların yüksək şüuruna ümid etməyin də heç bir mənası yoxdur, çünki onlar hətta ictimaiyyətdən də çox Paşinyan tərəfindən təzyiq və şantaja məruz qalırlar.

Bundan əlavə, bəzi müxalifət nümayəndələri bu günkü Ermənistanda mitinq mübarizəsinin səmərəsiz olduğunu iddia edirlər. Onlara görə, hazırkı şəraitdə Paşinyanı öz üsulları ilə hakimiyyətdən uzaqlaşdırmaq elə də asan olmayacaq, yəni bu mümkün deyil.

Qeyd edək ki, burada erməni mediası bununla bağlı ölkə müxalifətinə sual ünvanlayır: niyə onlar parlament platformasından mümkün qədər çox və qəti şəkildə istifadə etmirlər? Məsələn, bəzi erməni mediasının iddiasına görə, bunun üçün Nikolla bağlı kifayət qədər əsaslar da var. Misal üçün, sən demə, Paşinyanda nəninki vətən hissi, heç elementar insan empatiyası, mərhəmət belə yoxmuş. Amma onda hakimiyyətə, pula, sərvətə sonsuz dərəcədə hərislik varmış. Hətta deyilənə görə sərvət hərisliyində o özündən əvvəlki həmkarlarını da üstələyir. Qeyd edək ki, bütün bunları ermənilər lap bu günlərdə "kəşf ediblər".

...Ona görə də, ölkədəki müxalifətçi deputatlar hər vasitə ilə Nikolun hakimiyyətdən uzaqlaşdırılmasına nail olmalıdırlar. Burada da müxtəlif variantlar var. Məsələn, niyə ölkə parlamentində müxalifəti təmsil edən deputatlar öz mandatlarından imtina etmirlər? Əgər onlar toplum halda bu addımı atsalar, təbii ki, bu halda ölkə daxilindəki siyasi və dövlət böhranının qarşısını almaq mümkün olmayacaq. Bax, bu əsil şansdır.

Bu məqsədə çatmaq üçün isə, ilk növbədə parlament platformasından istifadə edilməlidir. Təbii ki, bu gün müxalifətin ölkə parlamentində azlıq təşkil etməsi də, bəhanə kimi qəbul edilməməlidir. Bundan əlavə, hazırda Nikoldan narazı deputatların da xidmətindən yararlanmaq olar. Yəni hökumətdən olan deputatlarla fərdi şəkildə işləyib onları Nikoldan qoparmağın artıq zamanı çatıb.

Maraqlıdır ki, yenə də bəzi erməni mətbu orqanlarının yazdığına görə, guya bu gün Ermənistanda kütlə təkcə mövcud sosial-iqtisadi kabusdan deyil, həm də "milli rüsvayçılıq"dan narazıdırlar(?).

Təbii ki, ermənilər 44 günlük müharibədəki açı məğlubiyyətlərini hələ də həzm edə bilmirlər. Belə ki, onların Nikol Paşinyana qarşı əksər ittahamlarının kökündə məhz bu "biabırçı məğlubiyyət" dayanır.

Yeri gəlmişkən, bu günlərdə ermənilər 44 günlük müharibə məğlubiyyətini araşdırmaq üçün xüsusi bir komissiya da yaradıblar. Belə ki, komissiyanın rəhbəri Andranik Köçəryan ilk iclasdan sonra jurnalistlərə verdiyi açıqlamada tezliklə Nikol Paşinyanı da 44 günlük müharibənin vəziyyətini araşdırmaq üçün sorğu-suala çağıracağını bəyan edib.

Onu da bildirək ki, bundan əvvəl "Hayastan" və "Mənim şərəfim var" fraksiyaları 44 günlük müharibə şəraitini araşdırmaq üzrə komissiyanın işində iştirakdan imtina etdiklərini bəyan ediblər. Belə ki, onların iddiasına görə, Nikol hakimiyyəti təmsilçisi




Andranik Köçəryanın rəhbəri olduğu komissiya hazırkı hakimiyyətin əməllərini obyektiv araşdıra bilməz.

...Bu arada Andranik Köçəryan da açıqlama ilə çıxış edib. Belə ki, onun fikrincə, "...müxalifət baş naziri onları maraqlandıran mövzularda dindirmək imkanını artıq itirib".

***Ağasəf Babayev***

TƏRS BAXIŞ+ÖZƏL

# “Miatsum” məhv edilib: amma separatçılar qalır (?!)

*Yaxud, səbr kasamız dolubmu?*

44 günlük müharibədən sonra erməni işğalından azad edilmiş Qarabağ ərazilərimizdə tikinti-quruculuq və bərpa işləri geniş vüsət alıb. Artıq azad olunmuş rayon və kəndlərimizdə sosial infrastrukturların və s. mühüm obyektlərin sürətli inşası həyata keçirilir ki, bu da qısa zamanda bu torpaqların əsl sahiblərinin öz doğma yurd-yuvalarına geri dönmələri prosesinə münbit təkanlarını verməkdədir.

Proses davam etdikcə, xalqımızı da narahat edən bəzi məsələlərin qısa müddətdə öz həllini tapacağı ümidi artır. Daha dəqiq desək, dədə-baba yurdlarımız qucaq açıb öz övladlarını səbirsizliklə gözləyir. Lakin...

Lakin bütün bunlarla yanaşı, hazırda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərdə qalan quldur-separatçı və terrorçu tör-töküntüləri hələ də ”miatsum” xülyalarını müxtəlif təxribatçı əməlləri ilə ayaqda saxlamağa cəhdlər göstərir, hətta zaman-zaman aşkar həyasızlıq nümayiş etdirən əməlləri ilə təxribatlarının ”barıtını” artırırlar.

### Separatçı quldurlar ”miatsum hərəkatı” deyilən sərsəm oyunbazlıqlarını davam etdirirlər!

Məsələ ondadır ki, Azərbaycan xalqının və dövlətinin birliyi, vəhdəti, ordumuzun gücü, qüdrəti sayəsində mənfur düşmən məhv edildi və bununla sərsəm ”miatsum” xülyalarının bir hissəsi tarixin zibilliyinə atıldı. Ancaq sən demə, Azərbaycanın humanizm prinsipindən çıxış etməklə separatçılara vaxt verməsi qarşı tərəfdən doğru qiymətləndirilmədi və həmin doğru qiymətləndirilməmənin nəticələridir ki, 2020-ci ilin 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanatın mühüm müddəalarından biri - 4-cü bənd hələ də icra edilməmiş qalmaqdadır.

Və nəinki icra edilməyib, üstəlik yuxarıda da qeyd etdiyimiz kimi, separatçı quldurlar ”miatsum hərəkatı” deyilən sərsəm



oyunbazlıqlarını davam etdirirlər!

### Panerməni ”Hayastan” fondunun Qarabağda hansı iti azıb?

Beləliklə, SİA xəbər verir ki, Sutnik-Armeniyanın yazdığına görə, panerməni fondu ”Hayastan” Rusiya sülhməramlılarının müvəqqəti nəzarətləri altında olan ərazilərimizdə yaşayış kvartalları və yol tikməyə başlayıb. Fondun direktor müavini Ararat Xlaqyan və tanınmayan separatçı rejimin ”şəhər tikintisi naziri” Aram Sarkisyan tikinti meydançalarında olublar, işlərin gedişatı ilə maraqlanıblar (?!).

”Onlar Əsgəran rayonunda inşa edilən ”Ovsepan” və ”İvanyan” (Xocalı!) qəsəbələrində olublar və sonra ”Stepanakertin” (Xankəndinin!) ”Arakelyan”, ”Tiqran Mets”, ”Tumanyan”, həmçinin ”Açapnyak” kvartalına baş çəkiblər”, deyə bildirilən məlumatda adıçəkilən separatçıların Ağdərə və Əsgəran rayonlarında aparılan yolların tikintisinə də baxış keçiriblər (??!!)

**Hər tərəfdən Azərbaycan Ordusunun hədəfi altında olan separatçı-quldurlar buna rəğmən, Azərbaycanın səbr kasasını doldurmaqla məşğuldurlar**



Fakt budur ki, quldurlar yığnağı rusların arxalarında istədikləri təxribatçı əməllərini rahatlıqla həyata keçirirlər və bütün bu proseslər təbii ki, Azərbaycan dövlətinin diqqətindən kənarda qalmır. O cümlədən, hər tərəfdən Azərbaycan Ordusunun hədəfi altında olan separatçı-quldurlar buna rəğmən, Azərbaycanın səbr kasasını doldurmaqla məşğuldurlar.

Düzdür, biz əminliklə deyə bilərik ki, torpaqlarımızda ”dövlət” adı altında və qanunsuz şəkildə fəaliyyət göstərən separatçılar heç nəyə nail ola bilməyəcəklər, hətta onların tikib-qurduqları da əvvəl-axır bizə qalacaq, çünki həmin rejim saman çöpündən asılı qalıb. Ancaq hər şeyə rəğmən, bənzər faktların ortaya çıxması Azərbaycan ictimaiyyətini haqlı olaraq hiddətləndirir!

### Cındırından cin hürkən Beqlaryan da bu tərəfdən...

Bu ad azmış kimi, separatçı rejimin, sözün əsl mənasında, ”cındırından cin hürkən” və ”dövlət naziri” adı altında ”fəaliyyət göstərən” daha bir cinayətkar ünsürü - Artak Beqlaryan özünün Facebook səhifəsində ”miatsum” xülyalarını sərsəmləyib, Azərbaycanın əzəli və əbədi torpaqlarını azad etməsini ”işğal” kimi yazıb, ”miatsum” məqsədlərini reallaşdıracaqlarını, hətta ”ana Ermənistanla birləşəcəklərini” iddia edib (?!).

### Qısa müddətli blist-krik olacaqmı?

Eyni zamanda, separatçıbaşı - Araik Arutyunyan Rusiyaya turist kimi səfərlər edərək bu səfərlərini ”rəsmi işgüzar səfər” kimi təqdim edir, guya Rusiyanın ”rəsmi şəxsləri ilə” görüşlər keçirdiklərini iddia edirlər. Halbuki, Kremlin diplomatik mənbələri həmin məlumatları təkzib veriblər. Bu da öz yerində... Fəqət, fakt budur ki, bütün bunlar rəsmi Bakının həm də bütövlükdə Azərbaycan xalqının onsuz da tükənmiş səbrini daha da daşırır və hətta belə desək, sülhməramlıların Qarabağda mövcud olub-olmamalarından, asılı olmayaraq qısamüddətli blits-krik vasitəsi ilə yerdə qalan mənfur separatçıların birdəfəlik torpaqlarımızdan - Xankəndidən, Əsgərandan, Ağdərədən, Xocalıdan süpürülərək Ermənistana doğru atılmaları mümkünlüyünü kifayət qədər qüvvədə saxlayır. Bir sözlə, Azərbaycan necə ki, 44 günlük müharibədə düşməni sarsıdıcı məhvə məruz qoydusa, bu dəfə özü də çox qısa müddətdə həmin qətiyyətini nümayiş etdirmək haqqında, hüququndadır!

**Rövşən RƏSULOV**

# Azərbaycanda Sevgililər Günü nə vaxt qeyd olunmalıdır?

Azərbaycan tarixində baş verən əlamətdar hadisələr onun milli dəyərlərini, milli qürurunu yaşadan bir gün olaraq əbədiləşir. Yaşadığımız son illərin reallıqları bir daha tariximizə xalqımızın mübarizliyini, dəyanətini həkk etmiş oldu. Qəhrəman vətən övladlarının şücaəti ilə tariximizə yeni qürurverici günlər daxil olub. Bu əlamətdar günlərin hər birinin səhifələrində Azərbaycan xalqının nə qədər əzəmətli, ləyaqətli, mənəvi-əxalaqi keyfiyyətlərə sahib olduğunu görürük. Azərbaycan xalqının yaşadığı ictimai-siyasi hadisələr zamanı bir daha xalqımıza məxsus dəyərləri özünün qabarıq şəkildə göstərmiş oldu.

Bu gün dünya ölkələrində qeyd olunan 14 fevral Sevgililər Günü sevgililərin, aşiqlərin bir-birlərinə eşq mesajları göndərdiyi bir günə çevrilib. Sevgililər Günü, 1800-cü illərdən sonra Amerikada Ester Hovlandın ilk Sevgililər Günü kartını göndərməsindən bu yana indiki vaxtda daha çox sayda insanın qeyd etdiyi ictimai bir hadisə halına gəldi. Sevgilər Gününün başlanğıc tarixi qədim Roma İmperiyasının dövrünə təsadüf edir. Miladdan sonra ilk əsrlərdən bəri hər il fevral ayının 14-də qeyd olunan Sevgililər Gününün başlanğıcı ilə əlaqədar olaraq o gündən günümüzə qədər gəlmiş müxtəlif əfsanə və hekayələr var. Amma bu hekayələri üstələyən xalqın həqiqəti bayramı sevgililər gününün tarixində dəyişiklik yaratdı. Təkcə tarixində yox, məzmununda, ideyasındakı fərqlilik başqa məcra aldı. 30 İyun tarixi də - Sevgililər Günü də təqvimizdə yer alıb. 2004-cü ildən etibarən bu gün ölkəmizdə qeyd olunur. Bu günün tarixi 1990-cı il yanvarın 20-də şəhid olan İlham və onun yoxluğuna dözə bilməyib intihar edən Fərizənin toy günü ilə bağlı olan amildir. İlhamın yoxluğuna dözə bilməyərək özünə qəsd edən həyat yoldaşı Fərizənin toy gününün tarixçəsidir. Bu, sevginin, sədaqətin, cəsarətin göstəricisi sayılır və bütün sevgililərə əbədi ör-




nək ola biləcək İlham və Fərizə Allahverdiyevlərin toy günü- 30 iyun tarixi Azərbaycanda Sevgililər Günü kimi keçirilir.

### AZADLIQ EŞQİ İLƏ YAŞAYAN İLHAMLARIN, FƏRİZƏLƏRİN HƏYATINA QOYULAN SON NÖQTƏ

Sevgililər Günü milli dəyərləri inkişaf etdirmək, qəhrəmanlıq tariximiz, sevgi kimi müqəddəs bir hissi özündə ehtiva edir. 20 yanvar faciəsinin qurbanı olmuş İlham və Fərizənin toy gününü 30 iyun tarixi Azərbaycanda Sevgililər Günü kimi qeyd olunması ideyası birmənalı qarşılandı. Artıq illərdir ki, bayram böyük sevgi ilə xüsusilə də gənclər tərəfindən qeyd olunur. Bunun əhəmiyyəti onunla bağlıdır ki, yetişən nəsil öz tarixi ilə bağlı həqiqətləri hər zaman xatırlaya biləcək, bu günün tarixini araşdıran kəslərə Azərbaycanda baş verən hadisələr, İlham və Fərizənin fədakarlığı, Azərbaycan qadınının dəyanəti tam şəkildə aydın olacaq. İki gəncin ölümünə səbəb olan amil - rus imperiyasının Azərbaycan xalqına qarşı yürütdüyü qanlı siyasət neçə-neçə insanın taleyini altüst etdiyi kimi, azadlıq eşqi ilə yaşayan ilhamların, fərizələrin də həyatına son nöqtəni həkk etdi.

Bu tarix Azərbaycan xalqına, xüsusilə, gənclərə, tələbələrə daha da sirayət edir. 30 iyun təkcə iki gəncin bir-birini sevdiyi, həmçinin iki gəncin şəhid taleyi də deyil, 30 iyun bir millətin yaşadığı tarixdir. Yəni 20 yanvar hadisələri baş verməsəydi, 30 iyun bayram gününə çevrilməzdi. Bu, böyük sevgilərin, mübariz insanların düşüncəsini, məqsədini gerçəkləşdirən tarixdir. Bu hisslər, ali dəyərlər, mübarizələr Azərbaycanı müstəqilliyə qovuşdurdu. Bu tarixi gün özündə çox məqamları birləşdirir.

İlhamla Fərizə nümunəsi bir məktəb yaratdı. Ən böyük əxlaqi, milli dəyərlər bu günün altında özünü göstərir. Bu tarixi gün çox şeylər üzərində qalibiyyətdir. Neçə-neçə Valentinlər Azərbaycanın İlham və Fərizəsi ilə müqayisə oluna bilməz. Azərbaycana xarici təcavüz olanda gecə yatmayaraq düşmənin qarşısına əliyalın çıxan igid bir oğulun vətəpərvərliyidir bu. İlhamın sevgisi uğrunda heç nəyi göz önünə almayan ”mən sənsiz yaşaya bilməyəcəm. İlham, mən sənin arxanca mütləq gələcəm”, - deyən Fərizənin ismətidir, mərdliyidir, dəyanətidir, vəfasıdır, 20 yaşlı qızın cəsarətidir. İlhamla Fərizə Azərbaycan xalqının tarixində elə hadisədir ki, o, dünya xalqlarının heç birinin tarixində yoxdur.

### İLHAM VƏ FƏRİZƏ HEKAYƏTİ

1989-cu il iyun ayının 11-də Fərizənin, iyunun 30-da isə İlhamın toyu olub. Beləcə, bir-birinə qovuşan gənclər 6 ay birgə xoşbəxt tale yaşayıblar. Necə deyərlər, düşmənin siması Bakıda görünənə qədər. 1990-cı il 19-dan 20 yanvara keçən gecə baş verən hadisədə düşmənin hücumu qarşısına çıxan ər oğullar içərisində İlham da var idi və şəhid olanların içərisində onun da adı oldu. Sən demə, narahat yaşayan Fərizə də son saatlarını yaşayırmış. Fərizə elə bil başqa dünyada idi. Heç kimi gözü görmürdü. İlhamın ”Şəhidlər Xiyabanı”nda basdıracağını eşidən kimi, qərarını qətiləşdirir. İlham Xırdalandakı məzardan çıxarılan gün, səhət saat 5-6 radələrində qatı sirkə turşusu içib özünü öldürür. İlhamla bir məzarda dəfn olunmaq, onu yalnız qoymamaq istəyi idi bu.

Budur, sevgi ”Şəhidlər xiyabanı”nda tariximizin ən möhtəşəm abidəsini yaratdı. Artıq tariximizin ən şanlı və möhtəşəm məkanıdır bura. Əbədi yuva salıblar bu məkanda. Zirvədə, ucalıqda yaşayırlar. Hər kəsin ziyarət məkanına çevrilən yerdə hər zaman İlham və Fərizə hekayəti danışılır. Tanrı ömrünü əsrlərə həkk edən bir ömrə sahib oldular. İndi ailə quran gənclər onların məzarını ziyarət edir, xeyir-dua alır, əhd-peyman bağlayırlar.

Belə insanların timsalında cəmiyyətə vətəndaşlar yetişdirilir. Düşmən güllləsinə sinəsini gərən, ismətini hər şeydən uca tutub sevgisi üçün fədakarlıq göstərən və düşmənin kin və hiyləsinə açıq etirazını bildirən bu gənclər örnək olaraq məhəbbətlə xatırlanır. Elə Sevgililər Gününü də onların ruhuna ehtiram olaraq qeyd edirlər. Belə bir tarixi Sevgililər günümüz olduğu halda, görəsən, 14 fevral Sevgililər günün qeyd olunmasına ehtiyac duyulurmu?!

**Nəzakət ƏLƏDDİNQIZI**

**Hüquqi və Demokratik İslahatlar Mərkəzi İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyə dəstəyi ilə keçirdiyi "İnsan alverinə qarşı mübarizədə vətəndaş həmrəyliyinin artırılması" layihəsi çərçivəsində növbəti tədbir Şirvan şəhərində keçirilib.**



# Şirvanda insan alverinə qarşı mübarizə mövzusunda dəyirmi masa keçirilib

SIA xəbər verir ki, jurnalistlərin, sosioloqların və ictimai fəalların iştirak etdiyi "İnsan alverinə qarşı mübarizədə gənclərin rolunun artırılması" adlı dəyirmi masada çıxış edən Şirvan şəhər İcra Hakimiyyətinin şöbə müdirinin müavini Adəm Hüseyni insan alverinə qarşı mübarizədən danışıb. Natiq qeyd edib ki, bu sahədə maarifləndirməyə və belə hallarla mübarizəyə böyük ehtiyac var. ŞİH nümayəndəsi bildirib ki, insan alveri dünyanın ən böyük problemlərindən biridir və bu problemin həllində həm dövlət, həm cəmiyyət, həm də ictimai təşkilatlar və media birgə və fəal işləməlidir.

Sonra çıxış edən layihənin rəhbəri, HDİM sədri İlham Əliyev bildirib ki, insan alveri ilə mübqrizədə son dövrlərdə xeyli tədbirlər həyata keçirilsə də problem öz aktuallığını saxlayır: "Dövlətimiz insan hüquq və azadlıqları sahəsində ardıcıl tədbirlər görüb, qanunlar qəbul edib, islahatlar aparsa da bu sahədə ağrılı problemlər hələ də qalmaqdadır.

Xüsusilə də, insan hüquq və azadlıqları üçün qara ləkə olan insan alveri cinayətlərinin mövcudluğu ağrılı problemlərdən hesab olunur. Hazırki dövrdə bu sahədə dünyada münbit şəraitin yaranması cinayətkar qrupların diqqətini cəlb edib və bu da Azərbaycan ailə dəyərlərinə, ənənələrinə ziddi olan insan alverinin daha da aktuallaşması ilə nəticələnib. Bu səbəbdən də təşkilatımız bu sahədə əlindən gələni etməyə çalışır ki, bu problemin həlinə öz töhfəmizi verə bilək".

Şəhər Gənclər Evinin direktoru Əfqan Həsənov insan alveri ilə bağlı faktların əsasən gənclərə çatdırılmasının, onların bu cinayətkar şəbəkənin tələsinə düşməməsi üçün kifayət qədər məlumatlı olmasının bu hallarla mübarizədə əsas rol oynadığını deyib. Qeyd edib ki, belə hallarla qarşılaşdıqda dərhal hüquq mühafizə orqanlarına məlumat verilməsi bu cür cinayətkarların vaxtında aşkar edilməsini təmin edər və başqalarına zərər verməsininn qarşısı alınmış olar.

Milli Məclisin deputatı İltizam Yusifovun səlahiyyətli nümayəndəsi Taleh Məmmədov isə bildirib ki, belə hallarla ən çox xaricə iş, təhsil üçün gedən gənclər qarşılaşır. Onun sözlərinə görə, xarici ölkələrə gedən gənclər xüsusilə ehtiyatlı olmalı, etibarlı olmayan yerlərə, şəxslərə inanmamalı, pul qazanmaq üçün qanunaziddi fəaliyyətlə məşğul olmamalıdırlar. Tədbir iştirakçıları olan gənclərdən Sahil Məmmədov, Ələkbər Nəzərov, Nuray Əliyeva və digərlər çıxış ediblər. Qeyd ediblər ki, insan alveri ən böyük cinayətlərdən biridir və bu problemin qarşısını almaq üçün bütün imkanlardan istifadə edilməlidir.

Çıxışçılar ictimai təşkilatların və medianın maarifləndirmə işində xüsusi rolunu qeyd ediblər və vurğulayıblar ki, bu işdə onlara dövlətin və cəmiyyətin dəstək verməsi problemin aradan qaldırılmasında çox böyük roy oynayır. Tədbirdə mövzu ətrafında geniş müzakirələr aparılıb, dünya ölkələrinin bu sahədəki təcrübəsindən danışılıb və Azərbaycanda bu istiqamətdə həyata keçirilən tədbirlərin əhəmiyyəti qeyd olunub. Xüsusən, çıxış edən gənclər bu sahədə üzərlərinə düşən hər şeyi etməyə hazır olduqlarını, bu işdə bütün imkanlarından istifadə etməyin vacib olduğunu vurğulayıblar. Tədbirdə gənclərin mövzu ilə bağlı sualları ətraflı cavablandırılıb, onlara bu sahədəki faktlar və statistika çatdırılıb.

***İlkin***

---

# Qərblə Rusiya arasında qalan Ermənistan

**Qərbin, xüsusən də Avropa İttifaqının Ermənistana azca nəzər salması fonunda bu işğalçı ölkədə əks qütb aktivləşməyə başlayıb. Onsuz da qarışıqlıq üçün bir bəhanə axtarılan Ermənistanda növbəti aksiya üçün sanki mövzu tapılıb. Bir növ, hadisələrin gedişatı zamanı Rusiyayönlü qüvvələrin fəallığı artmağa başlayıb. Təbii ki, bütün bu artan fəallıqlar, yaradılan qarışıqlıqlar əbəs yerə də deyil və bu, işğalçı ölkənin siyasi mənzərəsi barəsində müəyyən təsəvvürlər yaradır.**

Rusiyayönümlü qüvvələrin Avropa Birliyinin Ermənistandakı ofisi qarşısında etiraz aksiyası keçirməsini Ermənistan cəmiyyəti Kremlin sifarişi hesab edir. Ermənilər bunu da onunla izah edirlər ki, əks halda Sarkisyanın Respublikaçılar Partiyası ön sıralarda olmazdı. Yeri gəlmişkən, aksiyanın lideri və əsas nitq edəni Sejikin sadiq adamı, Ermənistan Respublika Partiyası sədrinin müavini Armen Aşotyan olub və ermənilər özləri bunu da təsadüfi hesab etmirlər. Əlbəttə ki, bu işğalçı ölkə vətəndaşları Serjikin bu zamana qədər nə oyunlardan çıxdığını hamıdan yaxşı bilirlər və çox güman ki, onu bütün qarışıqlıqlarda ittiham etmələrinin də əsaslı səbəblərini özləri dərk edirlər.

Aksiya iştirakçıları bəyan edirlər ki, Avropa İttifaqı son vaxtlar Ermənistanda çox pis siyasət yürüdür, burada bir çoxları əvvəlcə səfir təyin edilir, sonra isə təqaüdə göndərilir. Onlar hesab edirlər ki, nə əvvəlki səfir onlar üçün maraqlı olub, nə də indiki. "Avropa dəyərlərini təmsil etmək, Ermənistanda qondarma demokratiyanı təbliğ etmək əvəzinə, bütün bunları məhv edən və indiki rejimin xidmətçisi olan adamları Ermənistana təyin etməyi dayandırın", deyə aksiyaçı ermənilər tələblə çıxış ediblər. "Gedin evinizə", şuarları səsləndiriblər əslində onların qovulması tələbi ilə çıxış ediblər. Deməli, Avropaya, Qərbə qarşı nifrət və antipatiya açıq şəkildə Ermənistanda bəyan edilir və bundan azca da olsa çəkindikləri belə görünmür. Səbəb də bəllidir və indi bu ölkə Qərblə Rusiya arasında qalıb.

Demokratiyadan dəm vuran Ermənistanda demokratiya adına bir şey belə yoxdur və heç zaman olmayıb da. İndi ermənilərin demokratiya barədə pafosla səsləndirdilərinə yaşal, uydurma demək belə azlıq edir. Çünki, demokratiyadan əsər-əlamət bu ölkədə görünməyib və işğalçılığı dövlət siyasəti hesab edən ölkədən bundan artığını gözləməyə də dəyməz. Xatırlayırıq ki, Sarkisyanın dövründə Ermənistanda vəziyyət bundan da artıq, tamamilə acınacaqlı idi və demokratiya kimi bir sözün, ifadənin belə mövcud olmadığı heç kim üçün sirr deyil. Bu ifadə sanki ermənilərin leksikonunda belə olmamışdı o zaman. Çünki, Serjikin hakimiyyəti illərində bu işğalçı ölkədə kriminal-oliqarxiya hökmranlığı hökm sürürdü ki, onun dövründə hakimiyyət əhalinin əsas hissəsinin yoxsullaşması fonunda inanılmaz dərəcədə varlanırdı. Yəni, 2008-ci ilin fevral-mart aylarındakı qanlı hadisələr nəticəsində hakimiyyətə gələn Sarkisyandan başqa nəsə gözləmək də sadəlövhlük olardı.



Vəziyyət hal-hazırda Ermənistanda bir az da mürəkkəbdir. Bu ölkədə ara qarışıb, məzhəb itib və qüvvələr bir-birilərini ittiham edirlər. Heç nə olmasa belə, biri digərini rusiyayönümlü, yaxud qərbyönümlü olaraq ittiham edir, özünə düşmən sayır. Əlbəttə ki, Koçaryanların, Sarkisyanların, indi də Paşinyanların rəhbərlik etdikləri ölkədən bundan artığını da gözləmək mənasızdır. İndi də Ermənistandakı rusiyapərəst qüvvələr Avropa İttifaqı səfirinə ona görə üz tutublar ki, o, indiki hakimiyyətlə əməkdaşlıq edir və məhz ona görə Andrea Viktorin onlara "xidmət etməkdə" ittiham olunur. Bir haşiyə çıxmaq istərdik ki, Rusiya səfiri Kopırkin də hakimiyyətlə eyni şəkildə əməkdaşlıq edib, amma "keçmiş"dəkilər ona qarşı heç bir ittiham irəli sürmürlər. Sözsüz ki, bu başa düşüləndir və Kremldəki ağaları bunun üçün onları "incidə" bilər.

Maraqlıdır, bəs Rusiyanın beşinci kolonundan olan yoldaşlar, niyə kimisə tənqid etməyə indi cəsarət edirlər? Sözsüz ki, bu vəziyyətdə Avropa İttifaqına olan banal intiqam hissi də mövcuddur. Xatırladaq ki, Andrea Viktorin ötən il Ermənistanda keçirilən növbədənkənar parlament seçkilərində müxalifətin tərəfini tutmayıb və seçkilərlə bağlı hesabat da hazırlayıb, hansıki orada qeyd edib ki, ATƏT müşahidəçilərinin fikrincə, qısa müddət ərzində seçkilər rəqabətli və ümumilikdə yaxşı təşkil olunub. Deməli, erməni müxalifəti çoxdan yanıqlı imiş və indiki şəraiti münbit hesab edərək səsini bərkdən çıxarır.

İndi rusiyapərəst qüvvələrə etiraz edən Viktorini Ermənistanda ümumbəşəri və Avropa dəyərlərinə xələl gətirməkdə ittiham etmək dildə çox asandır. Amma gəlin görək, bu və ya bu kimi dəyərlər nə vaxtsa Ermənistanda olubmu? Yaxud, Köçəryanın, Sarkisyanın, yaxud hansısa birinin dövründə var idimi? Qətiyyən olmayıb. Olması da mükün deyil, çünki bu ölkənin təməli düz qurulmayıb və işğalçılığı dövlət siyasəti hesab edən ölkə barəsində hansısa dəyərlərdən danışmaq çox gülüncdür. Ona görə də bu barədə qışqırıb yaxalarını cıran ermənilər yaxşı-yaxşı fikirləşsinlər ki, belə gülünc görünməsinlər. Yox əgər elə hesab edirlər ki, onlar nə istəsələr edə bilərlər və onlar gülüş hədəfi olmağa öyrəncəlidirlər, o zaman buyursunlar, necə deyərlər, "itin dişi, donuzun dərisi".

Təbii ki, Kremlin nökərlərinin bu xaos içərisində olan ölkədəki əsəbilikləri başadüşüləndir. İndi Serjik və onun adamları qorxu içindədirlər ki, Ermənistan Rusiyanın təsir orbitindən çıxa bilər. Bunu düşünməyə əsas da görürlər. Xüsusilə, Paşinyanın "Demokratiya Sammiti"nə dəvət alması və onun bu tədbirdə iştirakı bir çoxlarının kürkünə birə salıb və sözügedən nökərlər ağalarının himayəsindən məhrum olmaq qorxusu yaşayırlar. Onlar görürlər ki, Paşinyan Qərbdən ona gələn bütün siqnalları açıq şəkildə qəbul edir və seçim etməyə də hər zaman hazırdır, hansıki bu, hər kəsə bəllidir. Deməli, istənilən anda Nikol onları "sahibsiz" qoya bilər və bunun üçün maneçilik belə olmadığını hər bir erməni bilir. Bunu qəbul edənlər də var, etməyənlər də, amma hər bir halda fikir ayrılıqları mövcuddur və bu da ölkədəki xaosu bir az da dərinləşdirir.

Bir sözlə, Qərblə Rusiya arasında qalan bir ölkə kimi Ermənistan müəmmalı durumdadır. Doğru seçim etmək, daha dəqiq desək, inkişaf, tərəqqi yolunu seçmək, iqtisadiyyatın, əlaqələrin, əməkdaşlıqların bərpasını reallaşdırmaq əvəzinə, kimin qənədi altına girmək, hansı ölkənin tabeliyini qəbul etmək kimi yolu seçən Ermənistan hər zamankı kimi yol ayrıcında, yol arasında elə hər zaman qalacaq. Çünki, kimlərinsə tabeçiliyində, yaxud tərəfində olan ölkə müstəqil ola bilməz və müstəqil olmayan ölkənin də hər tərəfə sürüklənəcəyi şübhə doğurmur.

***İnam Hacıyev***

# Sevgililər günü ilə əxlaqsızlıq gününün fərqi

**Azərbaycan cəmiyyətində bu məsələdə yekdil fikir hələ də tam formalaşmadığından tarixə boylanmağa çalışdıq. Gəlin görək tarix, məntiq və düşüncələrimiz nə deyir…**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi” istiqaməti çərçivəsində hazırlanıb.*



### Tarixə qısa ekskurs və ya 14 fevral gününün mahiyyəti

Məlumdur ki, hər il fevral ayı gələndə bir canlanma olur cəmiyyətdə. Kimi 14 fevral deyilən o günə hazırlaşır, kimi də o günə hazırlaşanları təəssüf və qınaq atəşinə tutur.

Fevralın ilk ongünlüyündən başlayaraq hədiyyə mağazalarında nəzərə çarpan canlanma 14 fevraladək davam edir. Daha çox gənclərin qeyd etdiyi 14 fevral tarixi yaşlı nəsili o qədər də maraqlandırmır.

”Valentin günü” dünyanın bir sıra ölkələrində 14 fevralda qeyd edilir. Dünya ölkələrində, bu günün həvəskarlarının bir-biri üçün hədiyyələr aldığı və kütləvi qeyd etdiyi faktları danılmazdır. Valentin gününün atributları da var, bunlar ürək şəkilləri və göyərçin fiqurudur. Bəs indi bir çox müsəlman ölkələrində, türk dünyasında belə qeyd edilən bu xristian gününün əhəmiyyəti nədir?

Katolik xristianların ”Müqəddəs Valentin” dedikləri və şəxsiyyəti ilə öyündükləri bu keşiş çox müəmmalı bir kimliyə sahibdir. Əslində 14 Fevralın sevgililər günü kimi qeyd edilməsi onun dövründən xeyli öncələrə, təxminən 1500 il əvvələ gedib çıxır. Bunun əsası xristianlığa deyil, qədim Roma ənənələrinə dayanır.

Qədim Romada 14 fevral tarixi bütün Roma xalqı üçün isə xüsusi əhəmiyyət kəsb edirdi. Həmin gün inanclarına görə, Roma ”Tanrı” və ”Tanrıçaları”nın kraliçası olan Junoya duyulan hörmətdən dolayı bayram elan olunurdu. Səhərisi gün isə Lupercalia bayramı başlayırdı. Bu bayram xalqın gənc kütləsi üçün böyük ”əhəmiyyət” daşıyırdı.

Bu ”əhəmiyyət”in səbəbi isə həyatları qəti qanun-qaydalarla müəyyənləşdirilmiş və bunun da təbii nəticəsi olaraq gəzib-əylənmə şansı çox məhdud olan gənclərin bu bayramda bir-birləri ilə iyrənc şəkildə əylənmələri idi. Bu ”bayram”da hansı gəncin hansı qızı seçməsi də öz istəklərinə bağlı deyildi.

Romalı gənc qızlar adlarını kiçik kağız parçalarına yazaraq, bir çəlləyə atır, həmin kağızlardan birini seçən romalı gənc də seçdiyi kağızda adı yazılan qızla həmin gecə bir yataqda olaraq istənilən cinsi arzusunu həyata keçirməkdə sərbəst buraxılırdı və onlar bayram boyunca ayrılmırdılar.

Dini nöqteyi-nəzərdən yanaşsaq, həmin gün minlərlə kişi və qadın Tanrını danaraq əxlaqsızlıqla məşğul olurdu. Yəni, bir sözlə 14 Fevral tarixi kütləvi əxlaqsızlıq günüdür.

### Bəs bu Valentin kimdir?

Buradan da belə bir sual meydana çıxır, əgər bu əxlaqsız hərəkətlər Valentindən öncəyə dayanırsa, o zaman Valentin niyə öldürülüb? Yəni, 1500 il əvvəlki əxlaqsızlıqlarla Valentinin nə əlaqəsi olub?

Valentini edam etdirən imperator II Kladius tarix qaynaqlarında bu hallara son qoymaq istəyən əxlaqlı və namuslu bir imerator kimi xarakterizə olunub. Onun hətta ordunun güclənməsi və nizam-intizamın qorunması üçün orduda xidmət edən gənclərə müvəqqəti olaraq evlənməyi qadağan etdiyi də tarixi qaynaqlarda yer tapmaqdadır.

O zamanlar Valentin Romada rahib idi. Onun ölümü barədə müxtəlif fərziyyələr var. Bunlardan ən geniş yayılmış olanı və həqiqətə dayananı budur ki, həmin keşiş imperatorun qadağan etməsinə baxmayaraq, artıq keçmişdə qalmış o iyrənc adəti bərpa edib gizli şəkildə qızlarla oğlanları qeyri-qanuni olaraq görüşdürməkdə davam edirmiş, yəni əxlaqsızlığı yayırmış. İmperator da onun bu hərəkətlərindən xəbər tutaraq zindana atdırır və 14 fevralda- məhz romalıların əxlaqsızlığının tüğyan etdiyi bir gündə döydürərək, təhqiramiz formada öldürtdürür.



Sonralar insanlarda belə bir fikir formalaşdırıblar ki, guya Valentin həbsxana müdirinin qızına aşiq olubmuş, ona görə də edam edilib. Bu arada, katoliklər də iddia edir ki, Valentin xristianlığı təbliğ etdiyi üçün öldürülüb.

Bu ənənə tarixin bütün dövrlərində keçərli sayılıb- hər hansı bir idealogiyanı, adəti, ənənəni ləğv etmək, kökündən qoparmaq üçün onun banisini aradan götürmək lazımdır.

Sözügedən qeyri-əxlaqi davranışı aradan götürmək üçün həmin dövrdə də kütləni yönləndirən şəxsi aradan götürmək kifayət idi ki, bu halın qarşısı alınsın, yəni əxlaqsızlıq dayansın. II Kladius da bunu edir, 14 fevral tarixində Valentini təhqiramiz işgəncə ilə öldürtdürür.

Maraqlıdır ki, onun həbsxanadan öz yoldaşlarına, xüsusən də keşiş dostu Mariusa ”Valentini unutma”, ”Səni sevirəm” deyə məktublar göndərməsi faktı da var. Bu fakt ümumiyyətlə, Valentinin hansısa bir qıza görə öldürüldüyü və yaxud da xristianlığı təbliğ etdiyinə görə edam edildiyi faktlarını şübhə altına alır və onun haqqında söylənən ”homoseksualist” ifadəsinin doğruluq dərəcəsini artırır.

Doğrudur, Valentini də Tanrı yaradıb, yəni onun hemoseksual olması öz günahı deyil. Tutaq ki, belədir, tutaq ki, o öz hisslərinə qalib gələ bilmir, bunu anlamaq olar. Amma o yalnız öz tərbiyəsini deyil, cəmiyyətin tərbiyyəsini pozmaqla məşğul olub. Yenə kimsə deyə bilər ki, bundan bizə nə, yəni bizim cəmiyyətə nə? Bax, məsələ də elə burasındadır. Bundan bizə nə? Yəni, bu əxlaqsızlar günündən, bu 14 fevral tarixindən bizə nə?

Valentinin edamından sonra əxlaqsızlıq səngidi, amma tamamilə dayanmadı. Əvvəllər açıq-aşkarda keçirilən bu ”bayram” ondan sonra künc-bucaqda gizli şəkildə davam etdirilirdi.

Bu günün ”Valentin günü”adı altında açıq-aşkar qeyd edilməsi isə onun ölümündən təxminən 226 il sonraya təsadüf edir. Yəni, Papa Gelasius tərəfindən 496-cı ildə ”Lupercalia” bayramının adı Valentinin şərəfinə dəyişdirilir. Addəyişmənin səbəbinə gəlincə isə, xristian ruhanilər Romadakı bütpərəstlərin ”Lupercalia” bayramına xristian gənclərin də qatıldığından və bütpərəst qızlarla əylənmələrindən narahat olduqlarından buna bir çarə axtarırdılar.

Elə bu zaman vaxtilə xristian qəbristanlığında dəfn olunan Valentin yada düşdü və ruhani xristianlar bununla vəziyyətdən çıxış yolu tapdılar. Onlar bu bayramın sadəcə və sadəcə adını dəyişərək gənclərin xristianlığa bağlı adı olan bir şənlikdə- ”Müqəddəs Valentin günü”ndə əylənmələrini, daha doğrusu ənənəvi kütləvi əxlaqsızlığı davam etdirmələrini təmin etdilər. Bununla da həmin bu ”Valentin günü” meydana çıxdı. Bir sözlə, Papa Gelasius əxlaqsızlığı rəsmiləşdirdi.

Yazımın sonuna öz düşüncəmi əlavə etmək istədim. Mənə görə



sevginin günü olmur və bu fərdi xarakter daşıyır. Hər cütlük üçün bu xarakterik bir tarixə bağlıdır. Kimi ilk tanış olduğu günü, kimi evləndiyi günü öz sevgililər günü kimi qeyd edir və məncə ən yaxşı variant da budur. Sevginiz əbədi və həmişə ləkəsiz olsun.

Məqalədə istifadə edilmiş qaynaqlar:

1. ”Oxford University Press” qəzeti, 1997-ci il, 14 fevral buraxılışı
2. ”Centre Daily Times” qəzeti, 2009-cu il, 14 fevral buraxılışı
3. ”New York Times” qəzeti, 1993-cü il, 14 fevral buraxılışı

***Lalə Mehralı***
***Sağlam Cəmiyyət Hərəkatının sədri***

SON SƏHİFƏ
SƏS
15 fevral
2022-ci il

# "Mançester Yunayted" bu futbolçusunu "Flamenqo"ya satıb



***"Mançester Yunayted" yarımmüdafiəçisi Andreas Pereyra ilə yollarını ayırıb. Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, İngiltərə klubu 26 yaşlı yarımmüdafiəçini "Flamenqo"ya satıb.***

Braziliya klubu icarə əsasında komandada çıxış edən milli üzvünün transfer hüquqlarına yiyələnib. Pereyra bu gün komanda ilə yeni uzunmüddətli müqavilə bağlayacaq. Qeyd edək ki, Andreas Pereyra 2021-ci ilin yayında icarə əsasında Braziliya klubuna keçmişdi.

# Həkim açıqladı:
## Çox maye qəbulu COVID-19-dan sağalmağa kömək edir

**Yeni növ koronavirusa (COVID-19) yoluxduqda bəzi içkilər orqanizmin sağalmasına kömək edir. Lakin bir sıra içkilər var ki, onlardan müvəqqəti olaraq imtina etmək məsləhət görülür.**

AZƏRTAC xəbər verir ki, həkim-endokrinoloq Aynur Muxtarova bu barədə deyib: "COVID və onun əleyhinə qəbul edilən dərmanlar orqanizmdə həm sərbəst radikalların əmələ gəlməsinə müəyyən qədər zərərli təsir göstərir. Ancaq maye qəbulu sərbəst radikalların orqanizmdən çıxmasına və COVID-19-un tez sağalmasına kömək edir. COVID-19 infeksiyasından qorunmaq üçün maye qəbulunu artırmaqla xəstəliyə yoluxma riskini nisbətən azaltmaq mümkündür" .



Həkim-endokrinoloqun dediyinə görə, evdə hazırlanan içkilər və yaşıl çay əsasında hazırlanan dəmləmələrin də tez sağalmağa kömək etdiyini bildirib. Lakin xəstəliklə mübarizədə bədənin təmizləmə funksiyasını yerinə yetirən əsas maye sudur: "Maye qəbul edilməsi deyəndə təkcə suyun qəbulu nəzərdə tutulmur. Sudan başqa gün ərzində tünd içkilər, qəhvə, çaylar, müxtəlif qazlı içkilər və kompotlar da içilir. Koronaviruslu xəstələrin ya adi sudan, ya da müxtəlif bitki dəmləmələrindən istifadə etməsi məsləhət görülür. Aparılan araşdırmalara görə, tünd içkilər - qəhvə və çay xəstəlik zamanı mənfi təsir göstərir".

Orqanizmdəki suyun bir hissəsini itirmək öz mənfi təsirini dərhal göstərir. Belə hallarda insan su içmədikdə vəziyyəti daha da pisləşə bilər. Qida və tullantıların daşınması, bədən temperaturunun nizamlanması, oynaqlarda sürüşkənliyin və orqanizmdəki bir çox kimyəvi reaksiyaların tənzimlənməsi baxımından maye olaraq qəbul edilən suyun əhəmiyyəti çox böyükdür.

# "28 May"da oğurluq edən keçmiş məhkum tutulub

**Metropolitendə Polis Şöbəsinə metronun "28 May" stansiyasında Gəncə şəhər sakini M.Cəfərovanın cibindən mobil telefonunun oğurlanması barədə müraciət daxil olub.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oğurluq əməlini törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş R.Xəlilov polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində müəyyən edilərək saxlanılıb. Faktla bağlı polis şöbəsi tərəfindən araşdırma aparılır.



# Vaksin sertifikatı olmayanlara xəbərdarlıq




"Azərbaycanda xeyli bir müddətdir ki, 3-cü doza vaksin prosesinə başlanılmışdır". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili, həkim Müşfiq Məmmədli bildirib.

Onun sözlərinə görə, bu istiqamətdə bir çox uğurlar əldə edilib: "Fevral ayının 15-dən başlayacaq bu proses indiyə qədər 3-cü dozanı almayan insanlar üçün keçərlidir. Əgər 3-cü dozanı almayan insanların əvvəldən qəbul etdiyi 2 doza ləğv olunacaq. Lakin 3-cü dozanı 15-nə qədər almış insanlar isə artıq müddətsiz peyvənd sertifikatı əldə edəcək. Yəni bu proses artıq başlanmış bir işin davamıdır. Həmçinin bu proses insanların peyvəndlənməsi və dövlətin verdiyi imkanlardan istifadə etmək üçün səfərbər xarakteri daşıyır".

***Banuçiçək Hüseynli***

# Bakıda tələbə qız özünü asdı

**Bakıda intihar hadisəsi baş verib. Lent.az-ın məlumatına görə, hadisə paytaxtın Xəzər rayonu, Şüvəlan qəsəbəsində qeydə alınıb.**

Qəsəbə sakini, 20 yaşlı Xədicə Yaşar qızı Adıyeva yaşadığı evin həyətində özünü asıb.



Faktla bağlı Xəzər Rayon Prokurorluğunda cinayət işi başlanıb, araşdırma aparılır.

Qeyd edək ki, intihar edən X.Adıyeva Bakıda yerləşən universitetlərdən birinin tələbəsidir.

## ELAN

30.03.2022-ci il tarixində saat 11:00-da "BTB kapital İnvestisiya Şirkəti " Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcək.

Cəmiyyətin təqdim etdiyi məlumata əsasən, Səhmdarlar yığıncağın gündəliyi ilə Cəmiyyətin ofisində tanış ola bilərlər.

Yığıncaq Cəmiyyətin Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, 27 ünvanında yerləşən ofisində keçiriləcəkdir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600